RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 191 (8507) BAZAR, 20 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## «Əsrin müqaviləsi» Azərbaycana həm də zəngin neft-qaz infrastrukturu bəxş edib

"Əsrin müqaviləsi"nin imzalandığı 1994-cü ildən bəri Azərbaycanda ən müasir və zəngin neft-qaz infrastrukturu yaradılıb. Çoxsaylı tikinti-quraşdırma sahələri, terminal və ixrac kəmərləri, digər obyektlər "Əsrin müqaviləsi"nin və ondan sonrakı sazişlərin reallığa çevrilməsində mühüm rol oynayıb. Bu infrastruktur hələ uzun illər Azərbaycana xidmət edəcək. Mövcud layihələr bitəndən sonra isə həmin obyektlərin hamısı mülkiyyət kimi dövlətimizə, sərvət kimi xalqımıza qalacaq.

26 il əvvəl "Əsrin müqaviləsi" imzalandıqdan sonra qarşıda duran ən mühüm məsələlərdən biri yeni neft infrastrukturunun yaradılması və köhnənin modernləşdirilməsi idi. Bu isə olduqca genişmiqyaslı tədbirlərin həyata keçirilməsini tələb edirdi. Buraya təkcə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında fəaliyyət göstərəcək platformaların tikintisi daxil deyildi. Nefti və qazı Xəzərdən suyun altı ilə quruya daşıyan xətlər, karbohidrogenləri qəbul etmək üçün terminal və istehlakçılara ötürmək üçün boru kəmərləri, dənizdə müxtəlif daşıma, quraşdırma işlərini yerinə yetirən müasir gəmilər lazım idi.

Sex və tikinti sahələri modernləşdirilən ilk müəssisələrdən biri Bakı Dərin Özüllər Zavodu (BDÖZ) oldu. Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan bu zavod Ümummilli Liderin Azərbaycana bəxş etdiyi ən böyük yadigarlardandır. Sovet dönəmində tikintisi SSRİ-nin başqa bir şəhərində planlaşdırılan bu müəssisənin Azərbaycanda inşa edilməsinə nail olmaq məhz Heydər Əliyev səyinin, mübarizəsinin və siyasi nüfuzunun sayəsində mümkünləşmişdi.

Bu gün genişləndirilmiş, modernləşdirilmiş BDÖZ dünya standartları səviyyəsində fəaliyyət göstərən bir müəssisədir. Onun sexləri, tikinti-quraşdırma və digər sahələri burada ən müasir dəniz platformalarının inşa edilməsinə imkan verir. Mütəxəssislərin fikrincə, əgər bu zavod olmasaydı, Azərbaycanın son onilliklərdə həyata keçirdiyi neft-qaz layihələrinin hər biri ən azı beş il ləngiyərdi.

BDÖZ nəinki AÇG üçün genişmiqyaslı sifarişlər yerinə yetirdi, "Şahdəniz" və digər layihələr üçün də çoxsaylı işlər həyata keçirdi, indi də öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Ardı 5-ci səh.



# Neft məqsəd deyil, xalqın daha yaxşı yaşaması üçün vasitədir

### Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz də o qədər möhkəm olacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə "Abşeron" yatağında quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat verildi.

Bildirildi ki, "Abşeron" yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir. "Abşeron" layihəsi üzərində iş zamanı "BOS Şelf" şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqdan qazın hasilatı üçün quraşdırılacaq platforma öz növünə görə nadirdir. Belə ki, platformanı kənardan, yəni, "Neft Daşları"nda yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. "Abşeron" layihəsində Xəzərdə ilk dəfə "boru içində boru" texnologiyası tətbiq olunacaq.

Sonra "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlinin qoyulmasını bildirən düymə basıldı.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Daha sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibə verdi.

**- Cənab Prezident, bu gün ölkəmizin neft-qaz sektorunun inkişafında növbəti mühüm hadisənin - "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasiminin şahidi oluruq. Bu layihənin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Bu, doğrudan da, çox əhəmiyyətli hadisədir. Çünki bu gün faktiki olaraq "Abşeron" qaz-kondensat yatağının yeni mərhələsi başlayır və əminəm ki, bu mərhələ də uğurlu olacaq. Beləliklə, Azərbaycan öz neft-qaz strategiyasında önəmli hadisəyə, önəmli addıma imza atacaqdır.

"Abşeron" yatağının tarixi bir qədər fərqlidir. Çünki ilk dəfə "Abşeron" qaz yatağı üzrə kontrakt xarici tərəfdaşlarla hələ 1990-cı illərin sonlarında imzalanmışdır. Mən o günləri yaxşı xatırlayıram və bizim "Abşeron" yatağı ilə əlaqədar böyük ümidlərimiz var idi. Çünki bizim geoloqlarımız, xüsusilə Xoşbəxt Yusifzadə tam əmin idi ki, bu yataqda kifayət qədər böyük qaz ehtiyatları vardır. Bir də ki, "Abşeron" yatağı üzrə kontrakt "Şahdəniz" qaz-kondensat yatağı üzrə kontraktdan sonra imzalanmışdır və əslində, bu, onu göstərirdi ki, Azərbaycan artıq neft ölkəsindən qaz ölkəsinə keçid alır.

Ancaq əfsuslar olsun ki, müəyyən müddətdən sonra birinci kontrakta xitam verildi. Onun da səbəbi ondan ibarət idi ki, qazılan kəşfiyyat quyusu boş çıxdı. Xatırlayıram, o vaxt bizim görkəmli geoloqumuz Xoşbəxt Yusifzadə demişdi ki, quyunun yeri düzgün seçilməmişdir və xarici tərəfdaşları inandırmağa çalışırdı ki, onlar öz iş proqramına bir qədər düzəlişlər etsinlər. Ancaq əfsuslar olsun ki, onun sözünə baxmadılar. Halbuki Xəzər dənizini Xoşbəxt Yusifzadə kimi tanıyan ikinci adam dünyada yoxdur. Ancaq heç bir nəticə əldə olunmadı və xarici şirkət bu yatağı tərk etdi. Yenə də deyirəm, biz tam əmin idik ki, burada çox böyük qaz ehtiyatları vardır. Şadam ki, "Total" şirkəti eyni fikrə gəldi və SOCAR-la müvafiq sənədlər imzalandı. Ondan sonra praktiki işlər aparıldı və böyük qaz-kondensat yatağı aşkarlandı. Bu önəmli hadisə - yatağın aşkarlanması ilə əlaqədar ilk xəbəri mənə Xoşbəxt müəllim vermişdir.

Ardı 2-3-cü səh.

## Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

İskəndərov Yusif Məhəmmədsəlim oğlu
Orucov Hacı Ələsgər oğlu
Zeynalov Arif Mürsəl oğlu

**"Tərəqqi" medalı ilə**

Abasov Fazil Ələkbər oğlu
Axundov Əkbər Müzəffər oğlu
Alverdiyev Ramiz Yolçu oğlu
Əhədov İlqar Əliağa oğlu
Əzizov Füzuli Cəmil oğlu
İbrahimov Cəfər Təvəkkül oğlu
Qasımova Mətanət Qurbət qızı
Məmmədov Məmməd Əzibala oğlu
Mirzəyev Sakit Şahbazəli oğlu
Muradov Ədalət Bayram oğlu
Rəhimov Vaqif Gülağa oğlu
Rəhmanov Valid Ruhul oğlu
Rəsulov Bayram Rufulla oğlu
Şıxıyev Hafiz Sabir oğlu.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 sentyabr 2020-ci il*



## Təhsil dövlət siyasətinin vacib strateji istiqamətlərindəndir

### Prezident İlham ƏLİYEV: "Müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcək"

Koronavirus pandemiyası ilə əlaqədar martın 3-dən Azərbaycanda bütün təhsil müəssisələri fəaliyyətini dayandırandan bəri müəllim və şagirdləri, eləcə də valideynləri maraqlandıran bir sual vardı - dərslər sentyabrda açılacaqmı? Əslində, 2020-2021-ci tədris ilinin necə başlayacağı bütün dünya gündəminin ən vacib müzakirə mövzusuna çevrilmişdi.

Çünki heç kəsə sirr deyildi ki, pandemiya bütün həyatımızı, yaşam tərzimizi dəyişdiyi kimi, təhsil sahəsinə də təsirsiz ötüşməyərək adət etdiyimiz məktəb vərdişlərini alt-üst etdi. Artıq xəyalımıza belə gətirə bilmədiyimiz üsulla, məsafədən təhsillə qarşı-qarşıya qaldıq.

Ardı 7-ci səh.

◆ 21 Sentyabr Beynəlxalq Sülh Günüdür

## Sülh - bütün odsaçan silahlardan güclü vasitə

### Ölkəmiz 30 ildən çoxdur bu günü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şəraitində qeyd edir

Azadlıq, bərabərlik, ədalət və bir də sülh bəşəriyyətin həmişə arzu etdiyi dəyərlərdən olub. Çox maraqlıdır, bunun fonunda bütün gözəllikləri, maddi və mənəvi dəyərləri ilə yaşadığımız dünyanın qədrini lazımi səviyyədə bilirikmi görəsən?

Sabitlik şəraitində yaşamalı olan insanlar min təəssüflər ki, bəzən haqsızlığın, amansızlığın, terrorun və müharibələrin qurbanlarına çevrilirlər. Bütün bunların qarşısını isə əlbəttə, sülh, barış alır. Ən kiçik münaqişələrdən tutmuş böyük müharibələrədək hər cür qarşıdurma sülhlə sona çatır. Buna görə də sülh bütün vasitələrdən güclüdür. Sülhə nail olmaq isə, təbii ki, münaqişə və müharibə tərəflərinin reallıqları düzgün qiymətləndirmələrindən keçir.

Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial-iqtisadi və mədəni inkişaf deməkdir. Sülhün carçıları isə gələcəyimiz olan uşaqlardır. Uşaqlar daim açıq səma altında azad, sülh və əmin-amanlıq şəraitində, atalı-analı yaşamalıdırlar. Sülhün carçıları olan göyərçinlərin uşaqlar tərəfindən daha çox sevilməsi də bundan irəli gəlir.

Lakin çox təəssüf ki, hələ də bəşəriyyətin təhlükəsizliyi təmin olunmayıb. Ayrı-ayrı regionlarda soyuq və odlu münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, günahsız insanlar, hətta uşaqlar və qocalar odsaçan silahların qurbanlarına çevrilməkdədirlər.

Ardı 7-ci səh.



## Prezident İlham Əliyev mükəmməl sənayeləşmə strategiyasının müəllifidir

"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdindəki Peşə Təhsil Mərkəzinin açılışı post-pandemiya dövründə yeni çağırışlara cavab addımı kimi xüsusi əhəmiyyət kəsb edir. İlk dəfədir ki, ölkədəki Sənaye Parkı ərazisində müasir peşə təhsili müəssisəsi yaradılır.

Yeni və müasir infrastruktura malik mərkəzdə tələbələrə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq və bununla ölkə iqtisadiyyatı üçün vacib olan nadir peşələr üzrə mütəxəssislərin yeni nəsli yetişdiriləcək.

Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev Sumqayıtın bu gün nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzi olduğunu bildirmişdir. Bu baxımdan məhz Sumqayıtda, Qafqazın ən böyük sənaye mərkəzlərindən birində Peşə Təhsil Mərkəzinin açılması dövlətin apardığı iqtisadi islahatlara müasir elmi yanaşmaların tətbiq edilməsinin bariz təzahürü hesab olunmalıdır.

Ardı 4-cü səh.

# Neft məqsəd deyil, xalqın daha

## Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq,






*Əvvəli 1-ci səh.*

Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat - bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq.

Eyni zamanda, bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat - bu da Bakı-Tbilisi-Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, "Azəri-Çıraq-Günəşli"də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü "Abşeron" yatağı bir qədər kompensasiya edəcək.

Ona görə bu, növbəti böyük hadisədir. Bütün bu qurğular Azərbaycanda istehsal olunub. Mən keçən ay burada olarkən "Qarabağ" dayaq blokunun dənizə göndərilməsini qeyd edirdim. Artıq bu blok burada bizim qarşımızdadır, dənizdədir və bu gün növbəti dayaq bloklarının dənizə göndərilməsi, əlbəttə ki, çox əhəmiyyətli hadisədir. Əminəm ki, qrafik üzrə iki ildən sonra "Abşeron" yatağından ilk qaz və kondensat çıxarılacaqdır.

**- Cənab Prezident, qarşıdan neftçilərin peşə bayramı gəlir. Bu münasibətlə ürək sözlərinizi eşitmək istərdik.**

- Mən neftçiləri qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etmək və onlara yeni uğurlar arzulamaq istəyirəm. Neftçilər hər zaman Azərbaycanda böyük hörmətə layiq insanlar olub. Bu gün də belədir və neftçilərin əməyi əsl qəhrəmanlıqdır. Neftçi peşəsi həm hörmətli peşədir, eyni zamanda, riskli, təhlükəli peşədir və bir daha demək istəyirəm ki, onların əməyi əsl qəhrəmanlıqdır.

Eyni zamanda, ölkəmizin uğurlu inkişafında neftçilərin çox böyük rolu vardır. Bu gün ölkə iqtisadiyyatının əsas hissəsi neft-qaz sektoru ilə bağlıdır və bu, bundan sonra uzun illər belə olacaq. Söhbət ondan getmir ki, digər sektorlar inkişaf etmir, edir, ancaq nə qədər inkişaf etsə də, yaxın gələcəkdə neft-qazdan əldə olunan gəlirlərin yerini tuta bilməyəcək. Eyni zamanda, bizim yeni layihələrimiz - bu gün "Abşeron", bir ay əvvəl "Qarabağ", digər layihələrin icrası bundan sonra da neft-qaz amilinin önəmli rolunu təsdiqləyəcək. Ona görə ölkəmizin uğurlu gələcəyi neftçilərin peşəsindən, onların nailiyyətlərindən böyük dərəcədə asılı olacaqdır. Çox şadam ki, mənim də həyatımın 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçibdir. O illərdə əldə etdiyim təcrübə mənim üçün çox qiymətlidir və çox gözəl xatirələrim var. Əldə etdiyim təcrübə, biliklər bu gün mənə kömək göstərir. Mən şirkətin vitse-prezidenti kimi xarici əlaqələrə rəhbərlik edirdim və əsas kontraktların hazırlanmasında, imzalanmasında fəal rol oynayırdım. Çox şadam ki, mən bizim görkəmli neftçilərimizlə bir yerdə işləmişəm. Əfsanəvi Neftçi Qurban - Qurban Abbasov, bax bu nəhəng kran gəmisi onun adını daşıyır. Onunla birlikdə işləmişəm. O, çox prinsipial mövqeyi olan, çox bilikli, peşəkar və cəsarətli adam idi. Belə adamla, sadəcə, təmasda olmaq, bir yerdə işləmək böyük təcrübədir. Biz müntəzəm olaraq Dövlət Neft Şirkətinin şurasında görüşürdük, məsələləri müzakirə edirdik. Mən söz düşmüşkən deyə bilərəm və hesab edirəm ki, Neftçi Qurban dünyada birnömrəli neftçi sayılmalıdır.

Eyni zamanda Xoşbəxt Yusifzadə ilə, bizim əfsanəvi neftçi-geoloqla birlikdə işləmişik. Dövlət Neft Şirkətinin köhnə binasında bizim iş otaqlarımız da yanbayan idi, ikimizin bir qəbul otağımız var idi. Ona görə hər gün görüşürdük və bu gün də görüşürük. Şadam ki, Xoşbəxt müəllim bugünkü mərasimdə iştirak edir və bizimlə birlikdə düyməni basıb. Çünki "Abşeron" yatağının işlənməsində onun çox böyük rolu var.

Bu gün neftçilər də görürlər ki, onların əməyi Azərbaycan xalqının maraqlarına xidmət edir və bu, onlar üçün də çox önəmlidir. Çünki onlar bilirlər ki, bu gün və bundan sonra ölkəmizin həm siyasi, həm iqtisadi nailiyyətləri böyük dərəcədə neft-qaz amilinə söykənir. Belə olan halda, bu, onları daha da ruhlandırır. Bir daha demək istəyirəm, mən hər zaman fəxr etmişəm ki, həyatımın 9 ili Dövlət Neft Şirkətində keçib və neftçilərin həmkarı kimi onları ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram.

**- Cənab Prezident, Azərbaycan qədim neft diyarıdır. Ölkəmizdə uzun illər - həm çar Rusiyası dövründə, həm Sovetlər dövründə, həm də indiki müstəqillik dövründə neft hasil olunub. O dövrlərdə və müstəqillik dövründə neft amilinin rolunu necə xarakterizə edərdiniz?**

- Bəli, Azərbaycan o ölkədir ki, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasil edilibdir. XX əsrin ortalarında tarixdə ilk dəfə dəniz yataqlarından neft Azərbaycanda hasil edilibdir. Ancaq əgər biz tarixə baxsaq görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi. Bir daha deyirəm, Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi.

Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev. Tağıyev, bildiyiniz kimi, Bakıya Şollar su kəmərini çəkdirmişdir, eyni zamanda, təhsilə böyük əhəmiyyət verirdi. Çünki görürdü ki, Azərbaycan gəncləri təhsildən kənarda qalırlar və beləliklə, gələcəkdə onların inkişafı və yüksək yerlərə çıxması problemli ola bilər. Ona görə hesab edirəm ki, Azərbaycanın neft maqnatları arasında onun xüsusi rolu vardır. Bizim ailəyə də onun köməyi dəymişdir. Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu. Onu da bildirməliyəm ki, İkinci Dünya müharibəsi zamanında o, Dağıstana birinci katib vəzifəsinə göndərilmişdir və müharibə illərində Dağıstana rəhbərlik etmişdir. O vaxt dağıstanlıları da digər Qafqaz xalqları kimi sürgün etmək üçün planlar var idi. Demək olar ki, bu qərar artıq sovet rəhbərliyi tərəfindən verilmişdi. Məhz Əziz Əliyevin fəaliyyəti, onun çox cəsarətli addımları nəticəsində dağıstanlılar bu bəladan xilas ola bildilər. Bu gün onun xatirəsi Dağıstanda yaşayır, onun şərəfinə abidə ucaldılıb.

Yəni, o vaxt bizim bu zəngin neft maqnatlarımız bu işləri görürdülər. Ancaq əlbəttə ki, onlar hər bir insana kömək edə bilməzdilər. Bir də ki, o vaxt Bakının neft maqnatları arasında ermənilər də kifayət qədər çox idi. Onlar da Azərbaycanda qazanılan pulları bir çox hallarda Azərbaycan xalqının maraqlarına zidd işlərə yönəldirdilər. Beləliklə, çar Rusiyası dövründə Azərbaycan xalqının neftdən gəliri sıfır səviyyəsində idi.

Sovet dövründə - o vaxt əgər 1920-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldən verməsəydi, hesab edirəm ki, yenə də ən zəngin ölkələrin birinə çevrilərdi. Çünki o vaxt da Azərbaycanda çıxarılan neft dünya neft bazarında əksəriyyət təşkil edirdi. Ancaq 1920-ci ildə müstəqillik əldən getdi və Azərbaycan nefti yenə də Azərbaycan xalqına kömək etmirdi. O vaxt - xüsusilə müharibə illərində neft mədənlərində işləyən insanlar çox ağır şəraitdə yaşayırdılar, gecə-gündüz çalışırdılar. Bir rəqəmi gətirə bilərəm ki, müharibə zamanı Azərbaycanda rekord səviyyədə neft hasil edilmişdir - 23 milyon ton. Yəni, cəmi biriki il ərzində neft hasilatı təqribən iki dəfədən çox artırıldı. O vaxt müasir texnologiyalar yox idi, bu artım daha çox insan əməyinin istismarı nəticəsində baş verirdi. Deyə bilərəm ki, bizim ailədə də bu, öz təsirini göstərdi. Çünki mənim digər babam Əlirza Əliyev pul qazanmaq üçün Naxçıvandan Bakıya gəlirdi və aylarla neft mədənlərində işləyirdi. Bu, onun səhhətinə çox mənfi təsir göstərmişdi və məhz buna görə gənc yaşlarında vəfat etdi.

Yəni, o vaxt Azərbaycan nefti istismar edilirdi. İkinci Dünya müharibəsində sovet ordusunun Qələbəsində Azərbaycan neftçilərinin xüsusi, müstəsna əməyi vardır. Çünki o vaxt Sovet İttifaqında yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi Azərbaycan tərəfindən təmin edilirdi, Azərbaycanda hərbi texnika istehsal olunurdu. Bu müharibədə 300 mindən çox Azərbaycan nümayəndəsi həlak oldu. Ancaq görün, Sovet İttifaqı dağılanda biz hansı vəziyyətlə üzləşmişdik: dağılmış neft infrastrukturu. Bu gün mənə edilən təqdimatda göstərilir ki, "Neft Daşları"na yeni həyat veriləcək. Çünki "Abşeron" yatağı "Neft Daşları" ilə bağlı olacaq. Amma "Neft Daşları" hansı vəziyyətdə idi o vaxt. Mən xatırlayıram, "Neft Daşları"na Prezident kimi ilk dəfə 2004-cü ildə gedəndə ağır vəziyyət idi. Bütün platformalar çürümüşdü, dağılmışdı. Burada işləmək böyük çətinlik, böyük təhlükə yaradırdı. Bunu biz əldə etdik. Neft hasilatı aşağı düşmüşdü, faktiki olaraq qaz hasilatı ölkəmizin tələbatını ödəmirdi. Bakının yarısı qazsız qalmışdı, o ki qaldı rayonlara, orada ümumiyyətlə, qaz deyilən şey yox idi. Deməli, iqtisadi vəziyyət ağır idi.

Hələ Sovet İttifaqının son illərində Azərbaycana qarşı böyük ədalətsizliklər edildi. Xüsusilə Azərbaycan xalqının cəlladı Qorbaçov və onun dəstəsi Azərbaycana nifrətlə yaşayırdı. Nəinki azərbaycanlılara, bütün müsəlmanlara böyük nifrət hissi var idi, mən bunu dəqiq bilirəm. Bunun nəticəsində Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırılandan iki həftə sonra ermənilər Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında iddia qaldırdılar. Heydər Əliyev amili imkan vermirdi ki, onlar baş qaldırsın. Ancaq Qorbaçovun yaxın ətrafı demək olar ki, ermənilərdən ibarət idi və bu əsassız iddiaya qarşı lazımi addımlar atılmadı. Əksinə, o vaxt Qorbaçov hakimiyyəti 100 faiz ermənilərin tərəfini tutdu və Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addımlar məhz o vaxt atıldı. Azərbaycanda bəziləri yəqin ki, bunu xatırlamır, ya da bilmir, amma bu tarixi bilmək lazımdır. O vaxt sovet rəhbərliyi qərar qəbul etdi ki, Dağlıq Qarabağda xüsusi komitə yaradılsın və o komitəyə Qorbaçovun köməkçisi Volski təyin edildi. Volski qatı ermənipərəst insan idi və orada işlədiyi dövrdə əlindən gələni edirdi ki, Azərbaycanın tarixi irsi Dağlıq Qarabağ ərazisindən silinsin. Azərbaycanlılar o vaxt Dağlıq Qarabağın bəzi yerlərindən zorla çıxarıldı. Xankəndidə ilk etnik təmizləmə siyasətinin təzahürləri üzə çıxdı və demək olar ki, azərbaycanlılar Xankəndidən qovuldular, Volski orada otura-otura. Yəni, beləliklə, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün imkan yaradıldı.

Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyi o vaxt buna, sadəcə, tamaşaçı kimi yanaşırdı, öz səsini ucaltmamışdı, öz sözünü deməmişdi. Özünü çox qorxaqcasına aparırdı, mərkəzlə münasibətləri korlamaq istəmirdi. O vaxt Azərbaycana rəhbərlik edən insanlar Azərbaycan xalqına xəyanət etmişdilər. Ondan sonra Qanlı Yanvar faciəsi. Cəllad Qorbaçov dinc insanlara meydan oxudu, Azərbaycan xalqının qanı töküldü. Ondan sonra Xocalı soyqırımı. Xocalı soyqırımını vəhşi erməni dəstələri ilə birlikdə törədən Sovet İttifaqının 366-cı alayı olmuşdur. Bəli, o alayda xidmət edənlərin böyük əksəriyyəti ermənilər idi. Ancaq bu, Sovet İttifaqının alayı idi və azərbaycanlılara qarşı etnik təmizləmə işlərində, Xocalı soyqırımında, torpaqlarımızın işğal altına düşməsində onların həlledici rolu olmuşdur. Yoxsa ermənilər təkbaşına bizim torpaqlarımızı işğal edə bilməzdilər.

Yəni, biz bütün bunları gördük. Azərbaycan İkinci Dünya müharibəsində Sovet İttifaqının Qələbəsinə əvəzolunmaz töhfə vermişdir - həm burada - arxa cəbhədə, həm də ön cəbhədə. Bu yaxınlarda Rostov vilayətində Sambek yüksəkliklərinin azad edilməsi mərasimi keçirilmişdir. Mən Rostov qubernatoruna çox minnətdaram ki, bu hadisə zamanı azərbaycanlıların qəhrəman əməyi və fədakarlığı orada qeyd edilmişdir. Eyni zamanda, Rusiyanın dövlət televiziyası - "Rossiya-1" kanalı məndən bu məsələ ilə bağlı müsahibə almışdı. Çünki Sambek yüksəkliklərini və Rostov vilayətini faşistlərdən təmizləyən məhz azərbaycanlılar olub - 416-cı Taqanroq diviziyası. O diviziyada xidmət edənlərin sayı təqribən 12 minə yaxın idi. Ancaq onların mütləq əksəriyyəti - 11 mindən çoxu azərbaycanlılar idi. Diviziyanın tərkibi üç dəfə yenidən formalaşdırılırdı, çünki həlak olanlar həddindən artıq çox idi. Rostovu faşistlərdən təmizlədilər, Mozdokda faşistləri Bakı tərəfə keçməyə qoymadılar. Yoxsa ki, Bakını zəbt edəcəkdilər. Bunu biz etmişik, qəhrəman Azərbaycan xalqı. Azərbaycan zabiti Məcidov Brandenburq qapısının üstünə Qələbə bayrağını sancmışdır. Amma tarixi kitablarda bu, var? Yoxdur. Kimdən soruşsan, mütləq əksəriyyət bunu bilmir. Nə üçün? Çünki azərbaycanlıların qəhrəmanlığı tarixdən silinirdi.

O vaxt Moskvada oturanlar - mikoyanlar və ona oxşar anti-Azərbaycan ünsürlər hər vəchlə çalışırdılar ki, azərbaycanlıların qəhrəmanlığını gizlətsinlər. Əfsanəvi partizan Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı müharibədən neçə il sonra verildi, özü də Azərbaycan tərəfinin təkidi ilə. Mən Sloveniyada olarkən onun məzarını ziyarət etdim. Orada böyük mərasim keçirdik. Orada onunla birlikdə vuruşan sloveniyalıları gördüm. Onlar göz yaşları tökürdü. Mən onlarla söhbət edirdim, çünki onların təəssüratları çox maraqlı idi. Deyirdilər ki, belə bir qəhrəman insan dünyaya gəlməmişdi. Yəni, o, gizlədilirdi, danılırdı şüurlu şəkildə.

Ona görə biz bunu Sovet İttifaqı dağılanda gördük. İndi baxın, müstəqillik dövründə, hələ 30 ili tamam olmayıb, amma biz hansı işləri görürük. Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng neft-qaz layihələri, bütün başqa sahələr də. İndi Azərbaycan bütün reytinqlərdə ən qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir. Sovet vaxtında bizim dağ rayonlarımızda qaz xətləri yox idi. Daşkəsən, Gədəbəy, Lerikə ilk qaz xətlərini biz çəkdirdik. O vaxt Azərbaycan qazı başqa respublikalara nəql edilirdi, ancaq respublikanın bəzi yerlərində qaz yox idi. İndi qazlaşdırma 96 faizdir. Bu gün biz infrastruktur layihələrinin təhlilinə verilən qiymətə görə dünyada qabaqcıl yerlərdəyik. Davos Forumu avianəqliyyat, dəmir yolu nəqliyyatı sahələrində Azərbaycanı 11-12-ci yerlərə layiq görüb. Yol infrastrukturunun keyfiyyətinə görə dünyada 27-ci yerdəyik. Bizim digər sosial infrastruktur layihələrimiz - müstəqillik dövründə 3700 məktəb tikilib və təmir edilib. Amma müstəqilliyə qədər o məktəblər nə gündə idi. 700-dən çox xəstəxana tikilib və ən müasir avadanlıqla təchiz edilib. Biz kosmik dövlətə çevrildik, biz nəhəng neft-qaz layihələri icra edirik. Təkcə iqtisadiyyat və sənaye sahəsində yox, baxın, idman sahəsində, Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Sovet dövründə bunu təsəvvür etmək mümkün idimi? Əgər o vaxt kimsə desəydi ki, bunların biri mümkündür, bəlkə də ona gülərdilər. Budur, müstəqilliyin üstünlüyü. Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir.

Biz neft gəlirlərini çox səmərəli yollarla yerləşdirmişik, onları qoruyuruq və ordumuzu gücləndiririk. Ona görə müstəqilliyin üstünlükləri göz qabağındadır. Əgər kimsə hansısa nostalgiyaya görə keçmiş dövrləri məhəbbətlə xatırlayırsa, biz o adamlara tutarlı cavablar verməliyik. Müstəqilliyə qarşı çıxan və onu aşağılamağa çalışan hər bir fərd dövlətimizə xəyanət edir. Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz o qədər də möhkəm olacaqdır.

**- Cənab Prezident, ölkəmizdə neft hasilatı ciddi ekoloji problemlər meydana gətirmişdir. Hazırda isə Sizin göstərişinizlə ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Bəli, tamamilə haqlısınız. Bu, doğrudan da ciddi məsələdir. Çünki o vaxt Bakı, Abşeron yarımadası, Sumqayıt şəhəri ekoloji fəlakət zonaları kimi təqdim edilirdi və faktiki olaraq ekoloji fəlakət mövcud idi. İndi bir çox hadisələr yaddan çıxır. Ancaq bizim neftlə ən çox çirklənmiş ərazimiz Bibiheybət buxtası idi. İndi Bibiheybət buxtası gözəl parklar, istirahət zonalarına çevrilib. Bibiheybət qəsəbəsi indi faktiki olaraq yenidən qurulub. Yəni, Bibiheybət buxtası ekoloji fəlakət zonası idi və o görüntülər yəqin ki, bir çoxlarının xatirindədir. Digər ekoloji fəlakət zonası Balaxanı və onun neft mədənləri idi. İndi baxın, Balaxanı gözəl bir qəsəbəyə çevrilibdir və orada işlər artıq tamamlanmaq üzrədir. Mən özüm gedib baş çəkəcəyəm və baxıb görəcəyəm ki, mənim göstərişlərim necə yerinə yetirilir. Təkcə Balaxanı yox, bütün qəsəbələr. Mən demişəm, Bakının bütün qəsəbələri abadlaşdırılmalıdır, orada insanlar üçün daha yaxşı şərait yaradılmalıdır, insanları narahat edən bütün problemlər həll olunmalıdır və bu qəsəbələr estetik cəhətdən müasir səviyyəyə uyğun olmalıdır. Qəsəbələrdə bütün tarixi abidələr bərpa edilməlidir və biz bu qəsəbələrə yeni həyat verəcəyik. Balaxanı zibilxanasını yadımıza salaq. Oradan çıxan tüstülər bütün şəhəri bürüyürdü və zəhər idi. Mən bu məsələ ilə məşğul olmağa başlayanda bəziləri deyirdilər ki, bunu söndürmək mümkün deyil. Çünki o, altdan yanır və orada qazlar əmələ gəlir, çox təhlükəli yerdir, yaxın düşmək olmaz. Bəziləri deyirdi ki, gəlin bunun üstündə sarkofaq tikək. Yəni, belə cəfəng təkliflər var idi. Amma biz bunun da yolunu tapdıq. Tamamilə təmizləndi. İndi orada gözəl park salınıb və zibilyandırma zavodu fəaliyyətə başlayıb. Onun yanında növbəti ekoloji fəlakət zonası - Böyükşor gölü də, onun bir hissəsi təmizləndi. O da ekoloji fəlakət idi, çünki açıq neft rezervuarı idi, eyni zamanda, bütün kanalizasiya suları da oraya axıdılırdı. Amma indi orada bulvar salınıbdır və o gölə quşlar qonur.

Digər layihələr. İndi Qara şəhəri yadımıza salaq. Artıq o anlayış yoxdur, onun yerində Ağ şəhər var. Ağ şəhər şəhərsalma layihəsini biz icra edəndə orada təqribən ən azı iki metr torpaq layı çıxarıldı. O da bütün neft çöküntüləri idi, qudron idi, zəhər idi. Onun yanında "Azərneftyağ" neft emalı zavodu yerləşir. Artıq onun da fəaliyyəti başa çatmaq üzrədir. Çünki iki ildən sonra Heydər Əliyev neftayırma zavodunda yenidənqurma başa çatacaq, "Avro-5" benzin istehsal olunacaq. Beləliklə, havanı ən çox çirkləndirən nəqliyyat vasitələri də təmiz benzinlə təmin ediləcək və "Azərneftyağ" neft emalı zavodu söküləcək. Bütün o rezervuarlar, qurğular söküləcək, ora böyük park olacaq. Həmçinin yod-brom zavodu. Bəziləri bilmir, o da aeroport yolunda yerləşirdi, o da bir zəhər idi. Biz oranı da utilizasiya etdik, oradakı çöküntüləri poliqona daşıdıq. Yaxud da ki, Sumqayıt şəhərinin ekoloji vəziyyətinə baxın. Əvvəllər Sumqayıtın yanından keçəndə hər kəs pəncərəni bağlayırdı ki, o üfunət iyi, o zəhər girməsin maşına. Amma bu gün Sumqayıt elə bil ki, kurort şəhəridir. Sənaye potensialı möhkəmləndirilməklə orada müasir təmizləyici qurğular quraşdırıldı, sənaye parkları yaradıldı. Sumqayıt Sovet İttifaqında bəlkə də ən çirklənmiş şəhər sayılırdı, bu gün ən təmiz şəhərlərdən biridir. Bütün bunları biz etmişik. Çünki bu, bizim xalqımızın həyatıdır, uşaqlarımızın, gələcək nəslin sağlamlığıdır. Amma çar Rusiyası dövründə, sovet dövründə buna fikir verilirdimi? Xeyr. Ancaq plan, ancaq hasilat, ancaq istismar, neft ver, qaz ver. Bəs insanların həyatı, onların yaşayışı, onların sağlamlığı? Ona görə bizim üçün bu, ön plandadır.

Mən Prezident seçiləndən sonra demişdim, ilk bəyanatlardan biri idi ki, "qara qızıl"ı insan kapitalına çevirməliyik, insanlara xidmət etməliyik. Biz bu sahədə, ilk növbədə, insan amilini nəzərə almalıyıq. Çünki neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik.

Ekoloji layihələr hələ ki bitməyib, hələ görüləsi işlər çoxdur. Hazırda Abşeron yarımadasında neft gölməçələrinin təmizlənməsi işi gedir. Mən tapşırıq vermişəm ki, bütün neft mədənlərində təmizləmə işləri aparılsın, orada ağaclar əkilsin, - necə ki, burada, Bibiheybətdə. Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik.

**- Cənab Prezident, neft-qaz sektorunda ölkəmizdə həyata keçirilən layihələrin icra vəziyyəti hansı səviyyədədir?**

- Layihələrin icrası uğurla gedir. Bizim əsas gəlir mənbəyimiz "Azəri", "Çıraq", "Günəşli" yataqlarıdır. Orada işlər plan üzrə gedir. İndi orada "Mərkəzi-Şərqi Azəri" adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarında hazırda 120-dən çox quyu fəaliyyətdədir və eyni zamanda, bu yataqların çox zəngin qaz ehtiyatları vardır. Ona şərti olaraq "dərin qaz" deyilir və indi "dərin qaz"ın işlənməsi ilə əlaqədar Dövlət Neft Şirkəti öz tərəfdaşları ilə müvafiq işlər aparır. "Şahdəniz-2" layihəsi icradadır. Artıq TANAP xətti ilə Türkiyəyə ötürülən qazın həcmi ildən-ilə artır. Əgər bir il bundan əvvəl Türkiyə bazarında Azərbaycan qazı 4-cü, 5-ci yerdə idisə, hazırda birinci yerdəyik və bu, həm bizim üçün, həm də Türkiyə üçün çox önəmlidir. Çünki qaz hər bir ölkənin enerji təhlükəsizliyini təmin edir. Bu gün Türkiyəyə qaz qardaş ölkədən gəlir və bu qazın həcminin artırılması istiqamətində əlavə addımlar atılacaq. "Abşeron" yatağında ikinci fazadan çıxarılacaq qaz da TANAP xətti ilə Türkiyəyə ötürüləcək və digər bazarlara ötürülə bilər. Eyni zamanda, "Qarabağ" yatağının işlənilməsi ilə əlaqədar işlər plan üzrə gedir. Hazırda burada gördüyümüz dayaq bloku dənizə göndəriləcək və ümid edirəm ki, bir, iki ildən sonra "Qarabağ" yatağından ilk neft hasil olunacaq. Bu yatağın özəlliyi odur ki, orada neft ehtiyatları daha çoxdur və bizim hasilatımızın sabit saxlanması üçün bunun böyük əhəmiyyəti var. Digər çox perspektivli layihə "Dayazsulu Abşeron" adlanır və bu layihənin də perspektivi çox böyükdür. Bir neçə aydan sonra o yataqlarda ilk qazma işləri aparılacaq. Ümid edirəm ki, biz orada da böyük neft ehtiyatı aşkar edəcəyik. SOCAR-ın təkbaşına iştirak etdiyi "Ümid"-"Babək" layihələrində də işlər plan üzrə gedir. Onlar da çox perspektivli layihələrdir və bizim planımızda bu layihələrin investisiya tutumunu, hasilatını artırmaqdır. Çünki yenə də deyirəm, həm daxili tələbat üçün bizə daim enerji resursları lazımdır və ixrac potensialımız da təmin ediləcək. Digər layihələr də var, hansılar ki, böyük ümidlər verir. Amma bütövlükdə deyə bilərəm ki, baxmayaraq "Əsrin kontraktı" 1994-cü ildə imzalanıb və o vaxtdan bugünə qədər bir çox kontraktlar imzalanıb və artıq 26 il keçib, Azərbaycanın neft potensialına dünyada maraq azalmır, əksinə, artır.

**- Cənab Prezident, mənim sualım Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Danışıqların hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?**

- Mən danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman, bütün dövrlərdə Azərbaycan xalqına həqiqəti demişəm və hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Xalq bilməlidir nələr baş verir, hansı yerdəyik, nədir bizim siyasətimiz. Mən çıxışlarımda və media nümayəndələri ilə görüşlərimdə aktual məsələlərə aydınlıq gətirirəm və hesab edirəm ki, bu, çox vacibdir. Çünki vətəndaşlar bilməlidirlər və düzgün təhlil aparmaq üçün onlar düzgün məlumat əldə etməlidirlər. Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub, pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edir. Əfsuslar olsun ki, Ermənistanın indiki rəhbərliyi bu məsuliyyəti dərk etmir. Onlar bu addımların nəyə gətirib çıxara biləcəyini də düzgün təhlil edə bilmirlər. Halbuki Ermənistanda rasional düşüncəli insanlar, siyasətçilər var. O siyasətçilər özləri artıq bu məsələni qaldırırlar və Ermənistan ictimaiyyətinə öz fikirlərini çatdırırlar ki, Ermənistanın bugünkü rəhbərliyi Ermənistanı uçuruma aparır. Siz bilirsiniz ki, iki il bundan əvvəl Ermənistanda dövlət çevrilişi baş verəndə Azərbaycan buna neytral qaldı. Yəni, biz vəziyyətdən istifadə edib nəyisə əldə etmək fikrində olmadıq. Biz hesab edirdik ki, bu, labüd idi. Çünki Ermənistanın bundan əvvəlki hakimiyyəti erməni xalqında ancaq nifrət hissləri doğururdu və faktiki olaraq bu hərbi-kriminal rejim Ermənistanı tamamilə bərbad vəziyyətə salmışdı. Xüsusilə nəzərə alsaq ki, yeni hakimiyyət hakimiyyətə gələndən sonra çox ümidverici bəyanatlar verməyə başlamışdır ki, bu məsələni həll etmək istəyirlər, əvvəlki hakimiyyəti tənqid edirdi, bizə qeyri-rəsmi kanallarla müsbət siqnallar göndərirdi, vaxt istəyirdi. Biz də ümidlərlə yaşayırdıq ki, bəli, yeni hakimiyyət bütün başqa sahələrdə də, bu sahədə də yenilik gətirəcək və o əvvəlki yanlış siyasətə düzəliş edəcək. Xüsusilə mənim Ermənistanın baş naziri ilə Düşənbədəki məlum görüşlərimdən sonra bu fikir daha da möhkəmləndi. O vaxt məndən xahiş olundu ki, onlara vaxt verilsin, Ermənistanda daxili vəziyyət ağırdır, çətindir, keçmiş hakimiyyətin nümayəndələri revanş almaq istəyirlər və bu da danışıqlar prosesinə çox mənfi təsir göstərəcək. Onlar danışıqlara meyillidir, məsələni həll etmək istəyirlər və xahiş edilirdi ki, atəşkəs rejimi möhkəmlənsin.

# yaxşı yaşaması üçün vasitədir

## nə qədər qüdrətli olsaq, müstəqilliyimiz də o qədər möhkəm olacaq

Mənim isə sözüm o idi ki, biz ciddi danışıqlar aparmalıyıq və o təqdirdə, əlbəttə, atəşkəs rejimi daha da möhkəm olacaqdır. O görüşdən sonra hər iki tərəf razılıq əsasında ayrı-ayrı açıqlamalar verdi. Açıqlamaların əsas mahiyyəti ondan ibarət idi ki, biz görüşdük, yəni, qeyri-formal, qeyri-rəsmi görüş keçirdik, razılaşdıq ki, danışıqlar prosesi sürətləndirilsin və atəşkəs rejimi möhkəmləndirilsin. Çünki bu iki mövqe daim vəhdət təşkil etməlidir. Əks təqdirdə, bu, status-kvonun möhkəmləndirilməsi demək olacaqdır, buna isə biz heç vaxt razı ola bilmərik. Müəyyən müddət ərzində Minsk qrupunun həmsədrləri də ümidlərlə yaşayırdılar və gəlib gedəndə, görüşlər əsnasında ümidlərlə dolu fərziyyələr irəli sürürdülər. Ancaq keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. "Qarabağ Ermənistandır" deməklə nəinki o yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir. Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, - halbuki bütün dünya bu cəfəng fikri rədd edib, - onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi.

İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslarımız ola bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədrləri də buna əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. Düzdür, onlar diplomatdırlar və çalışırlar ki, diplomatik leksikonu dilə gətirsinlər, ancaq hesab edirəm, Ermənistan tərəfinə artıq deyildi ki, bu kimi açıqlamalar ziyanlıdır və onların özləri üçün də problemlər yaradır. Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda, biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da davam edək, bu, sadəcə, məsuliyyətsizlik olar. Özümüz-özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. Əlbəttə, pandemiya müdaxilə edib, amma pandemiyasız da danışıqlar getmir. Siyasi cəhətdən bu qüsurlu və ziyanlı bəyanatlar danışıqlar üçün yer qoymur. İndi baxın, onların digər addımlarına. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir. Onların ağlı çatmır, təcrübəsi, bilikləri yoxdur - onlar bunu nümayişkaranə göstərirlər. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır, bizi təxribata çəkirlər. İnternetdə göstərirlər ki, Livandan hansısa erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan başqa, bizim qədim tarixi şəhərimiz Şuşada o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu, bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq. Ermənistanın baş naziri bizə 7 şərt qoyur. Birincisi, sən kimsən ki, bizimlə şərt dilində danışırsan. Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək. Mən demişəm ki, biz bu cəfəng şərtləri rədd edirik. Amma bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, necə ki, bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapır. Orada hansısa komediya tipli təlimlər keçirirlər. Yəni, hər bir addım bizə qarşı açıq təxribatdır. İyul təxribatı. O da artıq silahlı təxribatdır və heç kimə sirr deyil ki, bunu Ermənistan başlayıb. Artıq Minsk qrupunun həmsədr ölkələrinin birinin yüksəkvəzifəli rəsmisi bunu açıq bildirib. Mən o vaxt da demişəm, bu gün də deyirəm, bizim Ermənistan ərazisində heç bir hərbi hədəfimiz yoxdur və əgər istəsəydik, biz Ermənistan ərazisinə keçə bilərdik, bizim tam hərbi imkanlarımız var idi. Amma biz bunu etmədik. Çünki bizim hərbi siyasət konsepsiyamızda bu, yoxdur, əgər bizə qarşı ciddi təxribat törədilməsə. Əgər törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq, bunu hər kəs bilsin, heç bir məhdudiyyət. Əgər onlar beynəlxalq hüququ yerə vururlarsa, biz niyə beynəlxalq hüququ gözləməliyik, biz də yerə vuracağıq, amma axırı pis olacaq onlar üçün. İyul təxribatından sonra avqust təxribatı. Mülki vətəndaşlara qarşı terror aktları, hərbçilərimizə qarşı hərbi təxribat törətmək üçün diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı tutuldu. O, ifadələr verir, etiraf edir, adlar çəkir, kim göndərib, necə göndərib. Yəni, bu, çoban deyil, bu, yolunu azmış hansısa uşaq deyil. Yoxsa onlar bütün casuslarını çoban və dəli adlandırırlar. Bizdə onlardan artıq 5-6-sı var. Hamısı da dəli, hamısı da çoban? Belə çıxır ki, yəni, Ermənistanda çobanlar və dəlilər əksəriyyət təşkil edir? Buna da çoban demək istəyirdilər, amma daha deyə bilmirlər. Bu təxribatı kim edir? Bizmi diversiya qrupu göndərmişik? Yox, onlar göndəriblər. Bizmi iyul hadisələrini törətmişik? Yox, onlar. Bizmi onların vətəndaşlarını öldürmüşük? Yox, onlar. Ermənistan tərəfində mülki şəxslər arasında bir dənə də qurban yox idi. Amma bizim 76 yaşlı ağsaqqal həlak oldu, nə qədər ev dağıldı. Ona görə bu təxribatlar faktiki olaraq o siyasətin məntiqi nəticəsidir. Məqsəd danışıqları pozmaq, ondan sonra bizi ittiham etmək və status-kvonu dəyişməz saxlamaqdır. Budur, onların məqsədi. Ona görə hesab edirlər ki, bunu edə biləcəklər, hesab edirəm ki, səhv edirlər. Nə qədər bunu tez anlasalar, onlar üçün bir o qədər yaxşı olacaqdır.

**- Cənab Prezident, Ermənistan iyul ayında dövlət sərhədində hərbi təxribat törətdi və Azərbaycan Ordusu tərəfindən layiqli cavabını aldı. İşğalçının təxribatları bu gün də davam etməkdədir. Sizcə Ermənistanın bütün bunları törətməkdə məqsədi nədir?**

- Hesab edirəm ki, bu təxribatın məqsədlərindən biri haqqında mən öz fikirlərimi ətraflı söylədim. Digər məqsəd ondan ibarət idi ki, Paşinyan çevriliş nəticəsində hakimiyyətə gələndən bir ay sonra uğurlu Günnüt əməliyyatı keçirildi. Günnüt əməliyyatı onların növbəti məğlubiyyəti idi. Düzdür o vaxt, sözün düzü, əməliyyat artıq keçiriləndən sonra mən göstəriş verdim ki, bu əməliyyat haqqında geniş məlumat verməyin. Çünki biz erməni rəhbərliyindən fərqli olaraq piar üçün yox, mahiyyət üçün işləyirik. Bizə mahiyyət lazımdır. Biz o əməliyyatı keçirdik. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu çox böyük məharətlə, peşəkarlıqla bir itki vermədən önəmli strateji yüksəklikləri aldı, mövqelərimizi möhkəmləndirdik. Ermənilər ayılıb gördülər ki, biz artıq oradayıq. Cürət etmədilər, qorxdular ki, bizi oradan çıxarmağa cəhd etsinlər. Artıq Ermənistandan Dağlıq Qarabağa gedən yol da bizim gözümüzün qabağındadır. Onlar bunu unutmasınlar. Biz görürük, hansı maşınlar keçir, necə keçir. Onlar bunu gizlədirdilər. Çünki Paşinyan təzə gəlmişdi və gələn kimi belə acı məğlubiyyət, alçaldıcı məğlubiyyət. Onlar da gizlədirdilər. Mən də hesab edirdim ki, gizlədirlər, biz də gizlədək. Birincisi, nəyə lazımdır? Biz istədiyimizə nail olmuşuq. İkincisi, yenə də deyirəm, biz istəmədik ki, bu yolla əvvəlki hakimiyyətin əlinə bir arqument verək. Çünki o vaxt Ermənistanda vəziyyət lap ağır idi, indi də sabit deyil. Əgər o vaxt bu, dərhal bilinsəydi, ola bilər ki, hansısa daxili revanş hissləri üzə çıxa bilərdi. Amma sonra ondan əvvəlki hakimiyyətin jurnalistləri gəldilər gördülər ki, onların kəndinin başında Azərbaycan əsgərləri oturublar və onlara baxırlar. Yavaş-yavaş başladılar bu mövzunu istismar etməyə. Sonra artıq bu, üzə çıxanda mən də dedim ki, indi açıqlama verin nə etmişik, qoy, hamı bilsin. Oraya çəkiliş qrupu da getdi, çəkilişlər etdi. Siz də orada olmusunuz, görmüsünüz.

Yəni, ikinci məqsəd Paşinyan üçün hər hansı bir qələbənin qazanılması idi. İyul hadisələrini onlar məhz belə planlaşdırmışdılar. Çünki onlar bilirdilər ki, bizim dövlət sərhədinin böyük hissəsində sərhəd qoşunları yerləşib. Bu da bizim niyyətimizi göstərir. Onu göstərir ki, bizim artıq o sərhəddə ordu yox, sərhədin böyük hissəsində sərhədçilər yerləşir. Hesab edirlər ki, onlar rahatlıqla oradan keçib hansısa torpağı zəbt edə bilərlər. Ondan sonra belə raportlar verə bilərlər ki, onlar Azərbaycan torpağını işğal ediblər. Necə ki, onların müdafiə naziri demişdi ki, yeni ərazilər uğrunda yeni müharibə olacaq. O da təxribatın bir təzahürüdür. Amma o da alınmadı. Bir santimetr belə girə bilmədilər. Biz onlara sarsıdıcı zərbələr endirdik. O zərbələrin bəziləri internetdə göstərildi. Dəqiq atəşlə onların dayaq məntəqələri məhv edildi. Bir daha demək istəyirəm ki, artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur. Mənə gün ərzində dəfələrlə məlumat verilirdi. Mənim bir sözümlə Azərbaycan Ordusu keçib oturacaqdı Ermənistanın ərazisində. Amma getmədik. Biz məsuliyyətli ölkəyik. Bu, birincisi. İkincisi, bizim hələ ki Ermənistan ərazisində hər hansı bir məqsədimiz yoxdur. Ancaq əgər bu təxribatlar davam etsə, əlbəttə ki, biz öz siyasətimizə yenidən baxacağıq.

Bu da alınmadı. İndi də onlar o məğlubiyyəti qələbə kimi qələmə vermək istəyirlər. Amma sual olunur, əgər bu, qələbədirsə, haradadır bu qələbə? Nədir onda bu qələbə? Bu, birincisi. İkincisi, əgər bu qələbədirsə, onda siz niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət edirsiniz? Niyə hay-küy qaldırırsınız? Niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını cəlb etmək istəyirsiniz? Hesab edirəm ki, onların təxribatının səbəblərindən biri məhz zondaj aparmaq idi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında onların müttəfiqlərinin reaksiyası nə olacaq? Çünki onlar yeni böyük müharibəyə hazırlaşırlar. Bizdə operativ kəşfiyyat məlumatı var. Biz bilirik ətrafımızda nələr baş verir. Bilirik və bilməliyik. Bizim xüsusi xidmət orqanları çox səmərəli işləyirlər. Bu qədər deyə bilərəm. Bundan artıq deyə bilmərəm. Ona görə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını, öz müttəfiqlərini bu işlərə cəlb etmək üçün zondaj aparılır. O da alınmadı. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı heç bir bəyanat da vermədi, bir şərh verdi. Ondan sonra gördülər ki, onların səyləri puça çıxdı və çəkildilər kənara. İndi yenə də əfsanələr uydururlar ki, onlar böyük qələbə qazanıblar. Amma reallıq bundan ibarətdir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təcavüzkar dövlətdir. Onların Azərbaycana, azərbaycanlılara qarşı olan nifrəti bax, bu çirkin siyasətdə də özünü göstərir. Bir daha demək istəyirəm və onlara xəbərdarlıq etmək istəyirəm ki, əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq.

**- Cənab Prezident, iyul ayında törədilən bu təxribat zamanı və ondan sonrakı dövrdə yerli və xarici mətbuatda Rusiya və Serbiyadan Ermənistana silah göndərilməsi barədə məlumatlar yayıldı. Bu məsələ ilə bağlı bir daha Sizin münasibətinizi öyrənmək istərdik.**

- Birincisi, bir daha demək istəyirəm ki, Ermənistan bizim üçün daim təhlükə mənbəyidir. Ona görə Ermənistanla əlaqədar olan bütün hadisələri biz izləməliyik və bilməliyik. Sual yarana bilər, biz haradan bilmişik ki, Serbiyadan və Rusiyadan onlara silahlar göndərildi. Xüsusilə Serbiyadan göndərildi. Bunu biz, əlbəttə ki, etibarlı mənbələrdən öyrənmişik. O ölkələrə bu məsələ ilə bağlı diplomatik kanallarla siqnallar göndərildi. Eyni zamanda, hər iki ölkənin prezidentləri ilə də mənim telefon söhbətim oldu və mən narahatlığımı ifadə etdim. Onu bildirdim ki, Azərbaycan cəmiyyətində bu, bir çox suallar doğurur. Xüsusilə bu yüklərin daşınmasının intensiv xarakter alması, eyni zamanda, toqquşmaların dayandırılmasından dərhal sonra baş verməsi və iyul ayından sentyabr ayına qədər davam etməsi. Artıq bu da faktdır. Ona görə məsuliyyətli ölkə kimi mən hesab etdim ki, bu məsələni mütləq aydınlaşdırmalıyam. Mən, ümumiyyətlə, hesab edirəm ki, əgər hansısa problem, sual, narahatlıq varsa, niyə biz bunu gizlətməliyik. Biz bunu dilə gətirməliyik və bunu da etdik. Telefon danışıqları ilə əlaqədar Prezidentin Mətbuat Xidməti müvafiq açıqlamalar dərc etdi. Hesab edirəm ki, oradakı məlumat kifayətdir.

Əlbəttə ki, bu, bizi çox narahat edir. Çünki Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edib. Ermənistan terrorizmə sponsorluq edən ölkədir. Silahların göndərilməsinin intensiv xarakter alması, əlbəttə ki, bizi ciddi narahat edir. Çünki bu silahlar bizə qarşı istifadə olunur. Bu silahlarla bizim uşaqlarımız, insanlarımız vurulur, həlak olur. Ona görə bu məsələ, hər bir başqa məsələ kimi, diqqət mərkəzindədir. Biz bundan sonra da vəziyyətə nəzarət edəcəyik.

Söz düşmüşkən onu da bildirməliyəm ki, mən bu hadisələrdə Gürcüstan hökumətinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bilirsiniz ki, Gürcüstan öz ərazisindən Ermənistana silahların daşınmasına imkan vermədi. Məhz buna görə Xəzəryanı ölkələrin əraziləri və hava sahələri vasitəsilə yük təyyarələri Ermənistana silahlar daşıyır. Gürcüstan özünü çox etibarlı tərəfdaş kimi apardı. Ona görə mən Gürcüstan hökumətinə təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, Gürcüstan hökumətinin simasında biz etibarlı tərəfdaş və dost görürük. Hökumətlərarası əlaqələr gündən-günə möhkəmlənir. Bir çox önəmli layihələr icra edilir. Bu yaxınlarda bizim Xarici İşlər nazirimiz Gürcüstana rəsmi səfər edəcək. Bu, onun Xarici İşlər naziri kimi Gürcüstana ilk səfəri olacaq. İndi səfərin proqramı hazırlanır. Bir çox məsələlər var. Bizi həm tarixi əlaqələr bağlayır, həm ortaq maraqlar. Bu gün Gürcüstan və Azərbaycan arasındakı əlaqələr və inkişaf edən əməkdaşlıq hər iki ölkənin maraqlarına xidmət edir. Mən bir daha demək istəyirəm ki, Gürcüstan Hökuməti və Azərbaycan Hökuməti bir-birilə sıx təmasdadır və bu, davam edəcəkdir.

Ancaq o da həqiqətdir ki, Ermənistan və Gürcüstanda yaşayan ermənilər, eyni zamanda, gürcü familiyaları altında gizlənən etnik ermənilər hər vəchlə çalışırlar ki, Gürcüstan-Azərbaycan əlaqələrinə zərbə vursunlar. Gürcüstanda keçən il baş vermiş bəzi təxribat xarakterli hadisələrin mənbəyi də dünya erməniliyidir. Onların əsas məqsədi Gürcüstan-Azərbaycan əlaqələrini pozmaqdır. Amma buna nail olmayacaqlar. Çünki yenə də deyirəm, biz etibarlı tərəfdaşıq və bütün məsələləri açıq şəkildə müzakirə edirik. Azərbaycan hər zaman Gürcüstanın yanında olub. Mən indi bu tarixi faktları sadalamaq istəmirəm. Ancaq Azərbaycan hər zaman Gürcüstanda inkişafın, rifahın, sabitliyin tərəfdarı olubdur. Amma baxın, Ermənistan özünü necə aparır? Gürcüstanda yaşayan bəzi yerli ermənilər Ermənistan rəhbərliyinin təhriki ilə orada qızışdırıcı fəaliyyətlə məşğuldurlar. Onlar separatizmə meyil göstərirlər. Orada altdan-altdan təxribat xarakterli işlər görürlər, ideoloji iş aparırlar. Amma Ermənistan Gürcüstana qarşı səmimi münasibət göstərir? Xeyr, göstərmir. Onlar gürcü kilsələrinə əsassız iddialar edirlər. Ermənilərin yaşadıqları bölgədə tarixi abidələri erməniləşdirirlər. Orada Gürcüstanın dövlət rəmzlərinə lazımi hörmət göstərmirlər. Eyni zamanda, Ermənistan BMT və digər beynəlxalq təşkilatlarda həmişə Gürcüstanın əleyhinə səs verib. Ərazi bütövlüyü məsələlərində həmişə Gürcüstanın əleyhinə olub. Necə ola bilər? Sən bu ölkənin ərazi bütövlüyünü tanımırsan. Eyni zamanda, əminəm, gürcü xalqı unutmayıb ki, Abxaziyada gedən müharibədə erməni Baqramyan batalyonu hansı vəhşilikləri törətmişdir, kimin tərəfindən vuruşub və bu gün kimin tərəfindədir? Abxaziyada yaşayan və hakimiyyətin artıq böyük hissəsini zəbt etmiş ermənilər. Azərbaycan isə bütün dövrlərdə Gürcüstanın yanında olub. Bütün beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyü ilə əlaqədar birmənalı mövqe göstərib və göstərəcəkdir. Fərq bundadır. Əlbəttə, bu gün Gürcüstan xalqı hesab edirəm ki, yaxşı bilir kim onun dostudur, kim onun düşmənidir.

**- Bildiyimiz kimi, Ermənistan bir sıra müsəlman ölkələri ilə sıx təmas qurmaq istiqamətində addımlar atır və bu, haqlı olaraq Azərbaycan ictimaiyyətində kəskin reaksiya doğurur. Hətta bu yaxınlarda Misir rəhbərliyi bu ölkədə səfərdə olan Ermənistanın xarici işlər nazirini də qəbul etdi. Bütün bunlar müsəlman həmrəyliyinə nə dərəcədə mənfi təsir göstərir?**

- Çox mənfi təsir edir. Azərbaycan ictimaiyyəti haqlı olaraq öz narahatlığını ifadə edir. Biz dövlət səviyyəsində də bu narahatlığı ifadə edirik. Bildiyiniz kimi, Azərbaycan İslam həmrəyliyi işində həmişə çox fəal olub, ölkəmizdə bir çox tədbirlər keçirilib. Biz həmişə çalışmışıq ki, müsəlman ölkələrinə kömək göstərək, beynəlxalq təşkilatlarda həmişə müsəlman ölkələrinin maraqlarını müdafiə etmişik, həm səsvermə zamanı, eyni zamanda, əgər hansısa beynəlxalq təşkilata müsəlman ölkəsi öz namizədliyini irəli sürübsə, həmişə onu dəstəkləmişik. Yəni, bu həmrəylik sözdə yox, əməldə olmalıdır. Biz o ölkələrdənik ki, əməldə İslam həmrəyliyinə daim öz xarici siyasətimizdə böyük yer ayırmışıq. Mənim xarici siyasət istiqamətləri ilə çıxışlarımda siz bunu görə bilərsiniz. Əsas prioritetlərdən biri müsəlman ölkələri ilə əlaqələrdir. Çünki biz müsəlman dünyasının bir hissəsiyik. Bizi BMT-də ən çox dəstəkləyən ölkələr də müsəlman ölkələridir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə düzgün mövqe sərgiləyir. Bir çox qətnamələr qəbul edilib. Tovuz təxribatı ilə əlaqədar da həmçinin. Ona görə müsəlman ölkələrinin Ermənistanla hər hansı yaxınlaşmasına biz həmişə çox həssas yanaşırıq. Çünki Ermənistan bizim torpağımızı zəbt edib. Eyni zamanda, müsəlman ölkələri də bilməlidirlər ki, Ermənistan işğal edilmiş torpaqlarda müsəlman dini abidələrinə qarşı soyqırımı törədib. Baxın, bizim məscidlərimiz nə gündədir? Məgər müsəlman ölkələrində bilmirlər ki, ermənilər bizim yarıdağılmış məscidlərdə heyvan, donuz, inək saxlayırlar. Bu, müsəlman aləminə edilən təhqir deyilmi? Ona görə hər bir müsəlman ölkəsinin rəsmi şəxsi erməni rəsmisinin Azərbaycan xalqının qanına batmış əlini sıxanda bu görüntüləri göz önünə gətirsin. Eyni zamanda, mənə verilən məlumata görə, Ermənistanın xarici işlər naziri Misirdə hansısa dini liderlə görüşüb. Yaxşı, o dini liderə deyən olmadı ki, bu adamlar müsəlman məscidlərini təhqir edib, bütün müsəlman dünyasını təhqir edib. Biz dəqiq bilirik, erməni rəsmiləri Avropada olarkən avropalıların yenə də bunlara münasibətinin müsbət olması üçün onların əsas arqumenti o olur ki, biz müsəlmanların əhatəsində yaşayırıq. Bizim üç qonşumuz müsəlman ölkələridir. Biz burada, bu bölgədə xristianlığı qoruyan xalqıq. Bizim ətrafımızda olan müsəlman ölkələri düşməndir. Bəli, Türkiyəni və Azərbaycanı Ermənistan düşmən sayır. Ancaq İranla əlaqələrində həmişə riyakarcasına dostluq haqqında danışır. Bəs necə ola bilər? Belə də dostluq olar? Müsəlman məscidlərini dağıdırsan, sökürsən, orada inək, donuz saxlayırsan, təhqir edirsən, müsəlmanların heysiyyətinə toxunursan, sonra isə gəlib deyirsən ki, biz dost olaq? Mən belə dostluğu başa düşmürəm. Mən dəfələrlə müsəlman ölkələrinin rəhbərlərinə həm ikitərəfli formatda, həm çoxtərəfli formatda, həm də rəsmi çıxışlarımda müraciət etmişəm və demişəm ki, onlar bu məsələni nəzərə alsınlar.

Yenə də deyirəm, Ermənistan sıradan olan ölkə deyil. Ermənistan o ölkədir ki, islamofobiya onların dövlət siyasətidir. Onlar uşaqları müsəlmanlara qarşı nifrət ruhunda yetişdirirlər, bu ideologiyanı uşaqlara aşılayırlar.

Ona görə biz öz prinsipial mövqeyimizdə qalacağıq. Bu məsələni həmişə diqqətdə saxlayacağıq. Bütün müsəlman ölkələrinin rəhbərlərinə bir daha demək istəyirəm, Ermənistan sizin dostunuz deyil. İkincisi, Ermənistanda hansı maraqlar ola bilər? Bu ölkə uğursuz ölkədir. Bunun bir beynəlxalq adı da var - "Fail state". Uğursuz ölkədir. İqtisadiyyat çöküb, bazar məhdud, əhali azalır, hər hansı bir investisiya üçün cəlbedici deyil. Heç bir ölkəyə investisiya qoymur. Nəqliyyat dalanıdır bu ölkə. Hansı marağı ola bilər? Hansısa vəziyyətə görə, kiməsə acıq vermək üçün əgər belə addımlar atılırsa, bunlar ancaq təəssüf doğurur.

**- Ermənistanın Azərbaycana qarşı iyul ayında törətdiyi təxribatla bağlı Türkiyə birmənalı şəkildə haqlı mövqeyimizi müdafiə etdi və həmişə olduğu kimi, bu dəfə də Azərbaycanın yanında olduğunu bildirdi. Bundan sonra Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirildi və bu, Ermənistanda böyük qorxu, bəzi ölkələrdə isə narahatlıq doğurdu. Bununla bağlı nə deyə bilərsiniz?**

- İlk növbədə, mənim əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha təşəkkürümü bildirmək istəyirəm. Tovuz hadisələrindən sonra onun birmənalı, açıq və kəskin açıqlamaları bizi çox məmnun etdi, Azərbaycan xalqını sevindirdi. Bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, növbəti Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi. Eyni zamanda, digər rəsmi şəxslər - Türkiyə Böyük Millət Məclisinin sədri, Türkiyənin Müdafiə naziri, Xarici İşlər naziri, bizim digər qardaşlarımız Azərbaycana dəfələrlə həmrəylik, dəstək nümayiş etdirmişlər. Bu, bir daha onu göstərir ki, Türkiyə ədalətin, haqqın, öz qardaşlarının tərəfindədir. Biz də həmişə Türkiyənin yanındayıq və bütün məsələlərdə, - bunu artıq Türkiyədə də bilirlər, Azərbaycanda da bilirlər, dünyada da bilirlər, - Türkiyənin yanında olacağıq, bir yerdə olacağıq. Bizim birliyimiz böyük sərvətimizdir. Türkiyə ilə bizi ortaq tarix, ortaq etnik köklər, din, dil, mədəniyyət birləşdirir. Bu, böyük sərvətdir. Biz bu sərvətin təməli üzərində möhkəm əlaqələr qurmuşuq, bütün sahələrdə - siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəniyyət, hərbi sahələrdə. Məhz buna görə son vaxtlar bizim aramızda ticarət dövriyyəsi sürətlə artır. Azərbaycan xarici ölkələr arasında ən çox investisiyanı Türkiyəyə qoyub, Türkiyə də ən çox xarici investisiyanı Azərbaycana qoyub və bu proses davam etdirilir. İnsanlar arasındakı əlaqələr ən yüksək səviyyədədir. Ona görə bu hadisələr bir daha bu reallıqları bütün dünyaya göstərdi. Onsuz da həm Türkiyədə, həm də Azərbaycanda biz bunu bilirdik. Hər il bizim əlaqələrimiz möhkəmlənir, hər il bu ikitərəfli formata əlavə mövzular daxil edilir. Bu gün elə bir sahə yoxdur ki, biz orada birgə işləməyək və bir-birimizə dəstək göstərməyək.

O ki qaldı təlimlərə, onu da deməliyəm ki, bu təlimlər müntəzəm olaraq keçirilir. Hər il Azərbaycan hərbçilərinin xarici ölkələrlə birgə keçiriləcək təlimlər planı təsdiq edilir. Bütün bu təlimlər plan əsasında həyata keçirilir. Deməliyəm ki, son illər ərzində Prezident Rəcəb Tayyib Ərdoğanın və mənim birgə göstərişimizlə təlimlərin sayı ciddi şəkildə artmışdır. Keçən il 10-dan çox birgə təlim keçirilmişdir, həm Türkiyədə, həm Azərbaycanda, o cümlədən "TurAz Qartalı" təlimi birinci dəfə keçirilmir. Hər zaman "TurAz Qartalı" keçiriləndə Türkiyədən "F16"lar Azərbaycana gəlirdi və bizim təyyarələrlə, pilotlarımızla birlikdə birgə təlimlər keçirirdik. Naxçıvanda təlimlər keçirilmişdir və təlimlərin birində Türkiyənin Müdafiə naziri iştirak etmişdir. Yəni, burada qeyri-adi bir şey yoxdur. Bəli, bu, Tovuz hadisələrinə təsadüf edib. Bu, təsadüfidir, ya təsadüfi deyil Ermənistan özü baş çıxarsın. Amma bu təlimlər bir daha birliyimizi göstərir. Əlbəttə, Ermənistan rəhbəri də yaxşı bilir ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan istiqamətindən İrəvana təqribən 70-80 kilometr məsafə var. Bunu onlar bilirlər və bu, onları qorxuya salır. Hesab edirəm ki, onlar bu qorxudan psixoloji stres keçirirlər. Çünki bizdə olan məlumata görə, daha qapı qalmayıb döyməsinlər ki, vay bunlar təlim keçirirlər, biz necə olacağıq? Yəni, öz acizliyini, necə deyərlər, öz gücsüzlüyünü göstərməklə. Prinsip etibarilə, onların siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır. Artıq bu, insanların psixologiyasına da müdaxilə edilib. Bu da onu göstərir ki, bu ölkə müstəqil deyil, ləyaqətli siyasət apara bilmir, asılı vəziyyətdədir. Ona-buna nökərlik etmək heç kimə, necə deyərlər, yaraşıq gətirmir. Müstəqillik Ermənistanda formal xarakter daşıyır. Sən necə müstəqil ölkəsən ki, öz qərarını qəbul edə bilmirsən. Necə müstəqil ölkəsən ki, səni idarə edən Sorosdur. Paşinyan Soros rejiminin məhsuludur. Bu gün Ermənistanda söz sahibi Sorosdur. Baxın, Paşinyanın hakimiyyət komandasının tərcümeyi-halına. Hamısı ya Sorosdan, ya "Transperensy"dən, ya da ki, o biri insan hüquqları təşkilatlarındandır. Onlar bu gün Ermənistanda baş vermiş despotik hərəkətlərə göz yumurlar. Ermənistanda bir jurnalist aclıq edib həbsxanada ölüb, heç bir təşkilat məsələ qaldırmayıb. İndi Ermənistanda iki prezident məsuliyyətə cəlb edilib, cinayət işi açılıb, iki keçmiş prezident, sırf onların siyasi fəaliyyətlərinə görə, bunu hər kəs bilir, buna göz yumulur. Əsas müxalifət partiyasının liderinin deputat toxunulmazlığı götürülüb, buna heç bir reaksiya vermirlər. Avropa Şurası niyə susur? Ermənistan üzrə məruzəçilər niyə susurlar? "Freedom House", "Human Rights Watch", "Amnesty International" niyə susur? Sorosa görə. Soros Ermənistanın başçısıdır. Soros həmin bu dırnaqarası hüquq müdafiəsi təşkilatlarının sponsorudur. Onların sponsoru birdir.

Beləliklə, bu təlimlərə qayıdarkən bir daha demək istəyirəm ki, təlimlər keçirilir və nə qədər lazımdır keçiriləcək. Bu təlimlər bizə lazımdır, Türkiyəyə lazımdır, regional sabitliyə lazımdır. Çünki Ermənistan regional sabitlik üçün təhdiddir. Ermənistan Türkiyəyə qarşı ərazi iddiası irəli sürüb. Onların konstitusiyasında bu, öz əksini tapıb, təsbit edilibdir. Ermənistan indi Sevr müqaviləsini canlandırmaq istəyir. Halbuki ağlı başında olan hər bir tarixçi, siyasətçi qətiyyən buna imkan verməz. Çünki onların sonu olacaq. İndi sən burada səfalət içində, özü də özünə aid olmayan yerlərdə dövlət qurmuş balaca bir ölkə Türkiyə boyda ölkəyə qarşı necə iddia qaldıra bilərsən, necə ittiham edə bilərsən. Sən heç olmasa öz potensialına və Türkiyənin potensialına bax. Amma onların Azərbaycana və Türkiyəyə, bizim xalqımıza olan nifrəti, o irrasional düşüncəni, necə deyərlər, təhlükəli məcraya istiqamətləndirir.

Beləliklə, bizim Türkiyə ilə sıx əlaqələrimiz bundan sonra da inkişaf edəcək - Ulu Öndər Heydər Əliyev demişkən, "Bir millət, iki dövlət" prinsipi əsasında. Bütün məsələlərdə bir yerdəyik, hər bir məsələdə bir-birimizin yanındayıq.

**- Cənab Prezident, Siz "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində qeyd etmişdiniz ki, "necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq". Əminik ki, o gün uzaqda deyil.**

- Bəli, biz mütləq öz torpaqlarımıza qayıdacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. 1990-cı illərin əvvəllərində, o vaxt Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz Dağlıq Qarabağı müvəqqəti olaraq itirdik. Mən bugünkü müsahibədə müstəqilliyə qədər bəzi məqamları dilə gətirdim ki, Azərbaycan ictimaiyyəti bu hadisələri unutmasın, gənc nəsil də bunu bilsin. Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Sağ olun.



## *Müdafiə naziri:* “Azərbaycan Ordusu düşmənin istənilən təxribatının qarşısını almağa və sərt cavab tədbirləri görməyə tam hazırdır”



Sentyabrın 19-da Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə xidməti müşavirə keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Nazir bildirib ki, son vaxtlar əldə olunan məlumatlar və kütləvi informasiya vasitələrində yayılan xəbərlər, eləcə də Ermənistanın hərbi-siyasi rəhbərlərinin çıxışlarındakı müharibə ritorikası, səfərbərlik tədbirlərini həyata keçirməsi və bölgəyə kənar qüvvələri cəlb etməsi düşmənin genişmiqyaslı təxribatlar törətmək və vəziyyəti gərginləşdirmək niyyətində olduğunu açıq-aydın göstərir. Bunu nəzərə alaraq, sərəncamda olan qüvvə və vasitələrimiz nəinki hər hansı təxribatın qarşısını almağa, hətta sərt qabaqlayıcı tədbirlərin görülməsinə tam hazır olmalıdır. Bu məqsədlə kəşfiyyat fəaliyyətinə, döyüş təminatına xüsusi diqqət yetirilməli, bütün istiqamətlərdə mütəşəkkil addımlar atılmalıdır. Azərbaycan Ordusunun xüsusilə ön xətdə yerləşən bölmələrinin döyüş qabiliyyətinin, peşəkarlığının daim artırılması, şəxsi heyətin döyüşə hazırolma səviyyəsinin yüksəldilməsi, işğal altındakı torpaqların azad edilməsinə yönələn təlim və məşqlərin keyfiyyətinə nəzarət gücləndirilməlidir.

Müdafiə naziri Azərbaycan Ordusunda silah, döyüş və xüsusi texnikanın istismarının qış mövsümünə keçirilməsi, qışa hazırlıq prosesinin səmərəliliyi və vaxtında yekunlaşdırılması, bölmələrin hərtərəfli təminatı, hərbi qulluqçuların sağlamlığına, eləcə də COVID-19 pandemiyası ilə mübarizə tədbirlərinə xüsusi diqqət yetirilməsi barədə vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonda general-polkovnik Zakir Həsənov fəaliyyət planına uyğun olaraq döyüş hesabatlarının və səfərbərlik ehtiyatlarının müvafiq qurumlarla dəqiqləşdirilməsi və ehtiyatda olan hərbi vəzifəlilər ilə müxtəlif ixtisaslar üzrə toplanışların, çöl çıxışlarının və döyüş hazırlığı məşğələlərinin keçirilməsinə hazırlıqla bağlı göstərişlər verib.

## Ticarət və İnvestisiyalar üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun iclası keçiriləcək

Cari ilin sonunda Ticarət və İnvestisiyalar üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclası keçiriləcək.




İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Volfqanq Maniqlə görüşüb. Nazir Azərbaycanın Avropa İttifaqı ölkələri, xüsusilə Almaniya ilə əməkdaşlığın inkişafına böyük önəm verdiyini vurğulayıb. Qeyd edilib ki, Ticarət və İnvestisiyalar üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun, Alman-Azərbaycan Xarici Ticarət Palatasının səmərəli fəaliyyəti əlaqələrin inkişafında əhəmiyyətlidir və bu ilin sonunda İşçi Qrupunun növbəti iclasının keçirilməsi əməkdaşlığın genişləndirilməsinə töhfə verə bilər.

Diqqətə çatdırılıb ki, bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında Almaniya təcrübəsindən istifadə etməklə yaradılan Peşə Təhsil Mərkəzi açılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsi önəmlidir. Alman şirkətləri Azərbaycanın əlverişli investisiya və biznes mühitindən, nəqliyyat-tranzit imkanlarından yararlana bilərlər.

Görüşdə İqtisadiyyat naziri pandemiya dövründə görülən tədbirlər, hazırkı iqtisadi vəziyyət, aparılan islahatlar barədə məlumat verib, Azərbaycan İnvestisiya Holdinqinin və İqtisadi Şurasının yaradıldığını bildirib, postpandemiya dövrü üçün iqtisadi inkişaf istiqamətlərini diqqətə çatdırıb.

Səfir V.Maniq ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb, əməkdaşlıq perspektivləri barədə fikirlərini bölüşüb.

İqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətlərinin müzakirə olunduğu görüşdə Azərbaycan və Almaniya şirkətləri arasında əlaqələrin inkişafı, menecerlərin Almaniyada ixtisasartırma kurslarında iştirakının davam etdirilməsi, Almaniyanın Kiçik və Orta Sahibkarlıq Federal Assosiasiyası ilə Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında əməkdaşlıq və sair məsələlər barədə fikir mübadiləsi aparılıb.

## *Sübhan BƏKİROV:* “Spekulyativ xarakterli məlumat yayanlar Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salmaq istəyənlərdir”

“Sosial şəbəkələrdə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanının türkiyəli əlaqələndirici zabit, 1-ci dərəcəli kapitan Eren Günayın guya HDQ-nin qərargahına buraxılmaması və xidməti avtomobilinə icazə verilməməsi barədə yayılan məlumatların heç bir əsası yoxdur. Belə məlumatlar spekulyativ xarakter daşıyır”.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı, kontr-admiral Sübhan Bəkirov deyib.

S.Bəkirov bildirib ki, 1-ci dərəcəli kapitan E.Günay hazırda xidmətdədir və biz birlikdə yüksək səviyyədə qarşılıqlı fəaliyyət göstəririk. Bu kimi xəbərləri yayanlar Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salmaq məqsədi güdən bədniyyətli şəxslərdir.

## *Tural GƏNCƏLİYEV:* “Ermənistan qəsdən regionda gərginliyi artırmaqda maraqlıdır”

Ermənistanın siyasi rəhbərliyi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllini mümkünsüz etmək istiqamətində fəaliyyətinə daha bir element daxil edib. Belə ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən təşkil edilmiş oyuncaq rejimin “başçısı” bildirib ki, 2022-ci ilə qədər qondarma rejimin “parlamenti” Şuşaya köçürüləcək və bu köçürülmə Şuşa şəhərinin tarixi rolunu nəzərə alaraq “simvolik məna daşıyır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində təşkil edilmiş qondarma rejimin “parlamenti”nin Şuşa şəhərinə köçürülməsi ilə bağlı KİV-ə açıqlamasında Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev bildirib.

Tural Gəncəliyev deyib ki, son hadisələrin fonunda Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən biri olan Şuşanın adının məqsədli şəkildə Ermənistanın çirkin əməllərinə alət edilməsi işğalçı dövlətin növbəti məkrli oyunlara hazırlaşdığının bariz nümunəsidir. Bu qərar həm də onu göstərir ki, Ermənistan qəsdən regionda gərginliyi artırmaqda maraqlıdır. Təcavüzkar Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və Azərbaycanın daha çox ərazilərini işğal etmək üçün yeni hücumlara hazırlaşır.

“Bəyan edirik ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsinin işğalı müvəqqətidir. Ermənistanın işğalı altında olan bütün ərazilərimiz azad ediləcək və bütün məcburi köçkünlərin öz doğma yurdlarına geri dönməsi təmin ediləcək”, - deyə açıqlamada bildirilir.

# Prezident İlham Əliyev mükəmməl sənayeləşmə strategiyasının müəllifidir

*Əvvəli 1-ci səh.*

6 korpusdan ibarət mərkəzdə 500 tələbə təhsil alacaq. Buradakı korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var. Mərkəzin tədris otaqlarını gəzdikcə, laboratoriyalarla tanış olduqca dünyanın ən müasir təhsil müəssisələrindən birində olduğunu hiss edirsən. Anlayırsan ki, artıq peşə təhsili dedikdə söhbət ötən əsrin savadsız məzununa “qara fəhlə” arayışının verilməsindən getmir. Bugünkü mərkəzdə yeni intellektual düşüncə tərzinə və müasir, innovativ avadanlıq və texnologiyalara səlis yiyələnməyi bacaran ciddi peşəkarlar hazırlanacaq. Faktiki olaraq bu mərkəz ölkənin təhsil sistemində peşə hazırlığında ən müasir yanaşmanı tətbiq edən liderə çevriləcək, tezliklə Sumqayıtın sənaye şəhəri kimi yüksək hazırlıqlı kadrlarla təmin edilməsində sözünü deyəcək.

Mərkəzdə artıq 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, mərkəzin təhsil proqramı müasir dünya təcrübəsinə söykənir. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən qabaqcıl dünya təcrübəsini fəaliyyətlərində tətbiq edən, yeni bilikləri tələbələrə aşılamağa hazır olan güclü və peşəkar mütəxəssislər cəlb olunacaqlar.

Ən vacib məqamlardan biri də odur ki, tələbələr ixtisas fənləri üzrə dərslərin 80 faizini Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçəcəklər. Bu isə yeni sənətə yiyələnməyi qarşısına məqsəd qoyan gənclərə imkan yaradacaq ki, onlar birbaşa istehsalat prosesində yetişib püxtələşsinlər. Bundan əlavə, praktiki dərslərin təşkili məqsədilə mərkəzdə təlim avadanlıqları stendləri də quraşdırılmışdır. Bütün bunlar ölkə iqtisadiyyatının müxtəlif sahələri üçün yüksəksəviyyəli kadrların yetişdirilməsinə imkan verəcək.

Artıq heç kimə sirr deyil ki, Azərbaycanda uzun illər uğurla reallaşdırılan sənayeləşmə Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Məhz bu siyasətin sayəsində ölkədə istehsal edilən yerli sənaye məhsullarının çeşidi və həcmi artır, ixrac potensialı yüksəlir, ümumilikdə, neft-qaz amilindən asılılıq ildən-ilə azalır.

İqtisadi islahatların sistemli və ardıcıl tətbiqi hətta pandemiya şəraitində belə Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamikaya nail olmağa imkan yaratmışdır. Ümumilikdə, 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında 823 milyon manatlıq məhsul istehsal edilmişdir. Bunun 276 milyon manatlığı, təqribən 33 faizi ixrac olunmuşdur. 2020-ci ilin ilk 6 ayı ərzində isə sənaye parkında 534 milyon manatlıq məhsul istehsal edilmişdir. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunmuşdur.

Prezident İlham Əliyev açılış mərasimində daxili tələbatın mümkün qədər yerli məhsullar hesabına təmin edilməsinin vacibliyini vurğulamışdır: “...baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır”.

Dövlət başçısı hesab edir ki, tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün çox keyfiyyətli ixracyönümlü məhsul buraxan valyuta gətirən müəssisələr lazımdır. Əgər bu gün tədiyə balansını müsbət səviyyədə saxlamağa neft-qaz amili imkan verirsə, biz onu bir kənara qoyub ixrac-idxal əməliyyatlarında həmişə müsbət saldoya malik olmalıyıq: “Ona görə ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələri mütləq yaradılmalıdır. Burada Siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır”.

Açılış mərasimində Prezident İlham Əliyev xarici və yerli investorların cəlb edilməsinin vacibliyindən də danışmışdır. Yeri gəlmişkən, qeyd edək ki, artıq dövlət başçısının çağırışına həm xaricdə, həm də daxildə çalışan sahibkarlar cavab verirlər. Bu sahibkarlarla əlaqələr qurulur, istiqamətlər dəqiqləşdirilir. Dövlət başçısı onların haqqında belə deyir: “Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar. Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, onda Azərbaycana investisiya axını dayanmayacaq”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Erməni hakerlər Tarix İnstitutunun araşdırmalarını dərc edən Qırğızıstan KİV-inə hücum ediblər

Erməni hakerlər Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun araşdırmalarını rus dilində dərc edən Qırğızıstanın kütləvi informasiya vasitələrinə (KİV) hücum ediblər.




Tarix İnstitutundan AZƏRTAC-a bildirilib ki, bu barədə “Dünya azərbaycanlıları və digər türkdilli xalqların ittifaqı”nın və “Türkdilli dövlətlərin siyasətinə dəstək fondu”nun prezidenti Nüsrət Məmmədov məlumat verib.

Nüsrət Məmmədov Mərkəzi Asiya respublikalarında Azərbaycan həqiqətlərinin yayılmasında mühüm rol oynayır və o, Tarix İnstitutu alimlərinin erməni saxtakarlarını ifşa edən fundamental araşdırmalarının Qırğızıstanda fəaliyyət göstərən turktoday.info və nazarnews.org saytlarında dərcinə yardım edir. İnstitut alimlərinin Qırğızıstandakı saytlarda indiyədək bu məqalələri dərc edilib: “Ermənilərin Qacarlar İranından Şimali Azərbaycan torpaqlarına köçürülməsi”, “Saxtakarların yalançı elmi, yaxud ermənisayağı “tarix”, “Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi”, “İrəvan və ətrafındakı Azərbaycan torpaqları ermənilərə hansı şərtlərlə verilib?”, “Ermənilər Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəlmişlər”, “Real tarix və “böyük Ermənistan” uydurması”. Azərbaycan alimlərinin arxiv sənədlərinə əsaslanan məqaləri erməni millətçilərində ciddi narahatlıq doğurub. Ona görə də erməni hakerlər Qırğızıstan KİV-inə bir neçə dəfə hücum edərək onları dağıdıblar. Hazırda isə N.Məmmədovun ciddi səyləri nəticəsində bu saytlar bərpa olunub və yenidən fəaliyyətə başlayıb.

Xatırladaq ki, Qırğızıstanın paytaxtı Bişkek şəhərində “Türkdilli dövlətlərin siyasətinə dəstək fondu” tərəfindən Tarix İnstitutu alimlərinin “Ermənilərin Azərbaycan torpaqlarında törətdiyi vəhşiliklər tarixi faktlarla” və “Azərbaycan XVIII-XIX əsrlərdə” kimi fundamental tədqiqatları (rus dilində) nəşr olunub.

## Pandemiya dövründə əhalinin sosial müdafiəsini gücləndirmək üçün bütün zərur tədbirlər görülür

2020-ci il dünya tarixində insanlığın sınağa çəkildiyi il kimi qalacaq. İlin əvvəlindən sürətlə yayılan koronavirus pandemiyası tək can almaqla kifayətlənmir.

Pandemiya üzündən dünya düzəni pozulmağa başlayıb. Məlumdur ki, belə bir şəraitdə insanlar məcburi məhdudiyyət üzündən işə çıxmır, iş yerləri sürətlə bağlanır, bu dövrədək formalaşan iqtisadi münasibətlər pozulur. Beləliklə, dünyada böyük sosial problemlər yaranmağa başlayır.

Pandemiya insanlar kimi dövlətləri də sınağa çəkir. Səhiyyə sistemi yüksək səviyyədə olan ölkələrdə belə bu sahədə böyük qüsurlar üzə çıxır. Koronavirus pandemiyasına yoluxanların çoxu vaxtında tibbi yardım ala bilmədiyi üçün həyatlarını itirir. Bir tərəfdən də işsizlik orta və aşağı təbəqənin sosial vəziyyətini daha da ağırlaşdırır.

Dünyanı narahat edən koronavirus pandemiyasının ölkəmizə də mənfi təsir göstərəcəyi məlum idi. Bu səbəbdən Prezident İlham Əliyev əhalinin sağlamlığını və sosial rifahını qorumaq üçün önləyici tədbirlərin görülməsinə qərar verdi. Hələ pandemiyanın başlanğıcında dövlət başçısı bəyan etdi ki, əhalinin sağlamlığı və sosial rifahı onun üçün hər şeydən üstündür. Bu məqsədlə dövlət büdcəsindən külli miqdarda vəsait ayrıldı. İnsanların sağlamlığını qorumaq, sosial durumunu yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülməyə başlandı.

Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamı ilə hazırlanan Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək vermək məqsədilə 4 istiqamətdə 12 tədbirin icrası əksini tapdı. Bununla dövlət başçısının göstərişi ilə hazırlanan sosial-iqtisadi paket çərçivəsində karantin dövründə əhalinin sosial müdafiəsi istiqamətində mühüm addımlar atıldı. Proqramın icrası məşğulluq və sosial rifaha ehtiyacı olan 5 milyon insanı əhatə etdi. Bunun sayəsində dövlət sektorunda çalışan 900 min insanın əməkhaqqı, özəl sektorda işləyən 760 min nəfərin iş yeri saxlanılmaqla əməkhaqqı ödənildi. Eyni zamanda işsiz vətəndaşlara hər ay 190 manat birdəfəlik müavinət ödənildi. Ümumilikdə, bu məqsədlə dövlət 333 milyon manat vəsait ödədi. Bununla yanaşı, 85 min ailəyə aylıq orta məbləği 225 manat dəyərində ünvanlı sosial yardım ayrıldı.

Bütün bunlar o vaxt həyata keçirilirdi ki, dünyanın bir çox ölkəsində koronavirus pandemiyası ilə əlaqədar “kəmərsıxma” siyasəti hökm sürürdü. Bu siyasətin nəticəsində bir çox dövlətlər, ilk növbədə, sosial layihələrin həyata keçirilməsini təxirə salırdı. Lakin Prezident İlham Əliyev bəyan etdi ki, pandemiya dövründə heç bir sosial layihənin icrası dayandırılmayacaq. Dövlət başçısının cari ildə bir çox sosial layihələrin açılış və təməlqoyma mərasimlərində iştirakı bir daha sübut etdi ki, verilən vəd yerinə yetirilir.

Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin davamlı olacağını bildirərək demişdir: “Biz sosial yardım alanların sayını artırdıq. Bu rəqəm təqribən 85 minə yaxınlaşır - 85 min ailə, yəni 300 mindən çox insan. Digər önəmli sosial layihələr icra edildi. Bildiyiniz kimi, işləyənləri, o cümlədən qeyri-formal sahədə işləyənləri dəstəkləmək, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərmək və digər məqsədlər üçün təqribən 3 milyard manat vəsait nəzərdə tutulur və o vəsaitin bir hissəsi artıq xərclənib”.

Dövlət başçısı nəinki vədinə əməl edərək sosial layihələrin icrasını dayandırmadı, üstəlik, bu sahədə bir sıra rekordlara da imza atdı. Belə ki, cari ildə rekord sayda - 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin ediləcək, həmçinin şəhid ailələri üçün yenə də rekord sayda - 1500 mənzil tikilib istifadəyə veriləcək. Eyni zamanda cari ildə 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə 400-dən çox mənzil verilməsi nəzərdə tutulub.

Pandemiya dövründə dövlətin həyata keçirdiyi çevik və əhatəli sosial müdafiə tədbirləri əhali tərəfindən yüksək qiymətləndirilir. Çünki bu çətin anlarda dövlət vətəndaşın yanında olduğunu bir daha sübut edir. Əhalinin sosial rifahını pandemiya dövründə qorumaq üçün nəinki vəsait əsirgənir, əksinə vətəndaşa hərtərəfli dayaq olmaq üçün daha çox vəsait xərclənir. Çünki dövlətin başlıca məqsədi dünyanı sınağa çəkən pandemiyadan Azərbaycan vətəndaşının ən az ziyanla çıxmasıdır və bunun üçün çoxşaxəli tədbirlər davam etdirilir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## DTX son günlər bəzi internet saytlarında və sosial şəbəkələrdə yayılan cəfəng məlumatlara münasibət bildirib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) son günlərdə bəzi internet saytlarında və sosial şəbəkələrdə Rusiyaya xidmət etmələri iddia olunan, Azərbaycan Respublikasının vətəndaşları olan bəzi ictimai-siyasi xadimlərin, ali məktəb müəllimləri və tələbələrinin, informasiya agentlikləri və portalları əməkdaşlarının və digər şəxslərin siyahısının yayılmasına münasibət bildirib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, həmin siyahıya və qeyd olunan fikirlərə aydınlıq gətirilməsi üçün Dövlət Təhlükəsizliyi Xidmətinə ölkənin tanınmış siyasi xadimlərinin və ayrı-ayrı ziyalılarının çoxsaylı müraciətləri daxil olub.

Azərbaycan ərazilərinin işğalının davam etdiyi və düşmən tərəfindən cəbhədə təxribatların intensivləşdiyi indiki həssas məqamda vətəndaşlarımızın narahatlıqlarını nəzərə alaraq, Dövlət Təhlükəsizliyi Xidməti bəyan edir ki, ölkənin ayrı-ayrı tanınmış simalarının və digər şəxslərin xarici dövlətin maraqlarına xidmət etmələri kimi cəfəng və heç bir konkret fakta söykənməyən məlumatların yayılması respublikada sabitliyi pozmaq, dövlət hakimiyyəti orqanlarına inamsızlıq yaratmağa xidmət etməklə uzun illər ərzində formalaşmış Rusiya-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərinə xələl gətirməyə hesablanıb. Belə məlumatların yayılmasını Azərbaycan dövlətinə qarşı növbəti təxribat kimi qiymətləndirir, onların düşmən qüvvələrdən qaynaqlandığını bildirərək vətəndaşlarımızı belə məsuliyyətsiz yazılara inanmamağa çağırırıq.

Dövlət Təhlükəsizliyi Xidməti yuxarıda qeyd olunan məlumatların yayılma mənbələrinin və bu işdə əli olan qüvvələrin məqsəd və maraqlarının müəyyənləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirir.

# Dövlət idarəçiliyinə müasir yanaşmanı önə çəkən islahatlar strategiyası

Makroiqtisadi dayanıqlıq meyarına görə Cənubi Qafqazın lider ölkəsinə çevrilmiş Azərbaycan inkişaf etmiş dövlətlər sırasına daxil olmağı strateji hədəflərdən biri kimi müəyyənləşdirib. Respublikamız dünya liderləri sayılan ölkələrlə sivil rəqabət aparmaq, qlobal iqtisadiyyata inteqrasiyanı daha da sürətləndirmək və inklüziv inkişaf indekslərinə çatmaq üçün yeni idarəçilik texnologiyalarına əsaslanan iqtisadiyyat quruculuğu yolunda inamla irəliləyir.

İqtisadi tərəqqi amilinin müasir dünyada dövlətlərin gücünü şərtləndirən başlıca amil olduğunu düzgün müəyyənləşdirən Azərbaycan Prezidenti İlham Əliyev ötən 17 ildə rəhbərlik etdiyi komandanın bütün səylərini məhz bu istiqamətdə toparlayıb. Dövlətimizin rəhbəri Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu milli inkişaf doktrinasının ssenarilərinə əsaslanaraq uzunmüddətli tərəqqi konsepsiyası hazırlayıb, respublikamızın siyasi, iqtisadi, sosial, humanitar və elmi-mədəni həyatında tamamilə yeni intibahın başlanmasının əsasını qoyub, müasir idarəetmə institutu formalaşdırıb. Eyni zamanda dərin və hərtərəfli biliyə malik çevik siyasətçi kimi qloballaşma və inteqrasiya proseslərində, habelə beynəlxalq görüşlərdə, yüksəksəviyyəli danışıqlarda milli mənafeləri əzmlə müdafiə edib.

İqtisadi modernləşmə siyasəti, habelə müasir çağırışlara əsaslanan strateji yol xəritələri qeyri-neft sektoru və sahibkarlığın yüksəlişinə təkan verməklə innovativ bilik iqtisadiyyatının formalaşmasına, insan amilinin önə çəkilməsinə və səmərəli sosial modelin tətbiqinə imkan yaradıb. Müasir intibahın elmi-konseptual əsaslarını təşkil edən və hazırda uğurla icra olunan strateji yol xəritələri iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətliyinin gücləndirilməsi, neftdən asılılığın aradan qaldırılması, keyfiyyətli ixrac məhsullarının artırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi baxımından dayanıqlı inkişafa möhkəm zəmin yaradıb. Yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi Azərbaycanı qarşıya qoyulmuş hədəfə - dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparmaqdadır.

Ötən illərdə cənab İlham Əliyevin təsdiq etdiyi 50-yə yaxın dövlət proqramı ölkə həyatının ən müxtəlif sahələrində islahatların əsasını qoymaqla inkişaf prosesində ahəngdarlığı, yüksək dinamizmi təmin edib, ölkənin mövcud resursları keçid dövrü üçün səciyyəvi problemlərin aradan qaldırılmasına yönəlib. İnkişaf, sosial təminat və infrasruktur yönümlü bu layihələr, ilk növbədə, hər bir vətəndaşın layiqli həyat tərzinin təminatına, insan hüquq və azadlıqlarının qorunmasına, dövlət idarəçiliyinin çevik mexanizmlər əsasında həyata keçirilməsinə - bir sözlə, davamlı və sabit inkişafa xidmət edib.

"Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" bəyanatı ilə çıxış edən dövlət başçısı cənab İlham Əliyevin milli iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində yürütdüyü uğurlu siyasət pandemiya dövründə real nəticələrini verməyə başlayıb. Müstəqil respublikamız dünya iqtisadiyyatında neftin qiymətlərinin geosiyasi maraqlar əsasında müəyyənləşdiyi hazırkı mərhələdə sosial öhdəliklərini inamla icra edir, eyni zamanda sahibkarlığın inkişafına xidmət edən dəstək paketini inamla reallaşdırır.

İnkişaf etmiş ölkələrin belə koronavirusdan (COVID-19) ciddi ziyan çəkdiyi bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkəyə rəhbərlik edən liderin müdrik və uzaqgörən qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir. Prezident İlham Əliyevin ilk aylardan dünyadakı prosesləri düzgün analiz edərək zamanında qətiyyətli və operativ tədbirlər görməsi onun xalqının sağlamlığını dövlətin iqtisadi-siyasi dividendlərindən daha üstün tutduğunu bir daha təsdiqləyib.

Azərbaycanda insan və vətəndaş amilinə həssas münasibətin mövcudluğunu pandemiya dövründə həyata keçirilən davamlı sosial layihələr bir daha təsdiqləyib. Sosial təcrid tədbirlərinin iş yeri müvəqqəti fəaliyyətini dayandırmış vətəndaşların rifahına və sahibkarların işgüzar fəallığına təsirləri nəzərə alınaraq mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu diqqətdə saxlanılıb. Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu bu baxımdan xüsusi əhəmiyyətli olub.

Azərbaycan Prezidenti İlham Əliyev özünün praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə, hüquqi dövlət quruculuğuna, vətəndaş cəmiyyətinin bərqərar olmasına, iqtisadi resursların bu yönümdə səfərbər olunmasına yeni təkan verib. Siyasi fəaliyyətinin əsas istiqamətlərini milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq, xalq amilinin hakim mövqeyə malik olması, qüdrətli və müasir Azərbaycanın yaradılması, onun dünya birliyində tutduğu layiqli mövqenin daha da güclənməsi, qarşıya qoyulan məqsədlərə nail olunması, ölkənin dünyanın zəngin məmləkətlərindən birinə çevrilməsi, tolerantlığın, mültikultural dəyərlərin mənimsənilməsi və bu qəbildən olan digər amillər təşkil edən Prezident İlham Əliyev yeni yüzillikdə ölkəmizin intibahının möhkəm əsaslarını yaradıb. Onun qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Ermənistanın təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılıb.

Qeyd etmək lazımdır ki, 2018-ci ilin 11 aprel seçkiləri ölkədə siyasi liberallaşma və modernləşmə proseslərini sürətləndirməklə səmərəli, şəffaf və hesabatlığa əsaslanan dövlət idarəçilik sisteminin formalaşmasına yeni imkanlar açıb, hakimiyyət komandasına yeni ruh və müasirlik çalarları gətirib. Cənab İlham Əliyevin səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən həyata keçirdiyi struktur və kadr islahatları - xüsusilə də müasir qlobal çağırışları obyektiv dəyərləndirməyi bacaran, yüksək intellektual səviyyəli, müasir menecer təfəkkürlü gəncləri yüksək dövlət postlarına təyin etməsi sistem islahatlarının yeni mərhələsinə yaxşı imkanlar açıb. Hökumət komandasındakı son dəyişikliklər dövlət rəhbərinin gənc, perspektivli və vətənpərvər kadrların irəli çəkilməsi yolu ilə idarəetmə sistemində şəffaflığı, səmərəliliyi, hesabatlığı təmin etmək istəyinin bariz təcəssümüdür.

Prezident İlham Əliyev çıxışlarında hadisələrə, mövcud problem və nöqsanlara münasibət bildirməklə yanaşı, həm də proseslərin gələcək dinamikasını, həlli yollarını göstərir. Həm də o qədər yüksək peşəkarlıqla ki, bunun üçün ən müxtəlif sahələr üzrə yaxşı mütəxəssis olmaq lazımdır. Nitqlərində yer alan ayrı-ayrı məqamlar göstərir ki, cəmiyyət həyatına aid xırda detal belə dövlət başçısının diqqətindən kənarda deyil. Cənab İlham Əliyev təkcə müxtəlif mənbələrdən aldığı məlumatlarla kifayətlənmir, eyni zamanda bu məlumatları fərdi müşahidələri ilə birgə nəzərdən keçirərək ümumi qənaətə gəlir.

Dövlət başçısı cənab İlham Əliyev xalqın arzu və istəyini müxtəlif mənbələr, sosial şəbəkələr, eləcə də Sosial Tədqiqatlar Mərkəzi vasitəsilə dərindən öyrənir, təxirəsalınmaz qərarlar qəbul edir və məmurlar qarşısında ciddi tələblər qoyur. "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı" deyən Prezident idarəçilikdə, fəaliyyətdə və düşüncədə yeniləşməni və sivil dəyərlərin tətbiqini zəruri sayır.

Ölkədə qlobal miqyası ilə sistem xarakteri almış, uzaq hədəflərə hesablanmış islahatların sosial sifariş amilinə söykəndiyi, xalqın arzu və istəklərini tam ifadə etdiyi göz önündədir. İki ildən artıq müddətdə ictimai həyatın bütün sahələrində aparılan kadr dəyişikliklərinin, şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə modellərinin başlıca mahiyyəti insanları önə, diqqət mərkəzinə çəkməkdir: idarəetmənin şəffaflaşdırılması, bir çoxlarına həlli müşkül görünən neqativ amillərin aradan qaldırılması üçün ciddi siyasi iradənin ortaya qoyulması, icra hakimiyyəti orqanlarında əsaslı kadr dəyişikliklərinin aparılması, yeniliklərlə ayaqlaşa bilməyən kadrların vəzifələrindən uzaqlaşdırılması sistemli islahatların mühüm tərkib hissəsidir.

Ölkə Konstitusiyasında əksini tapmış hər üç hakimiyyət qolunda - icraedici, qanunverici və məhkəmə hakimiyyətində islahatların paralel şəkildə aparılması onun sistem xarakter daşımasını bir daha təsdiqləyir. İnkişaf etmiş ölkələrin təcrübəsi də göstərir ki, demokratikləşmə prosesində hər üç hakimiyyət qolunun şəffaf, çevik işləməsi, müasir çağırışlara hazır olması başlıca şərtlərdəndir. Azərbaycanda da hər üç hakimiyyət qolunda reallaşdırılan islahatlar fundamental xarakter daşıyaraq insanların arzu və istəklərini tam ifadə edir.

2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq referendumu əsasında Azərbaycan Respublikasında vitse-prezidentlik institutunun yaradılması hakimiyyətin icraedici qolunun müasirləşdirilməsi istiqamətində mühüm addım kimi tarixiləşib. 2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təyin edilməsi idarəçiliyin müasirləşdirilməsi, hakimiyyətə ictimai inamın daha da gücləndirilməsi baxımından əhəmiyyətli addım olub. Birinci vitse-prezident vəzifəsinə çoxşaxəli fəaliyyəti ilə milyonların rəğbətini qazanmış layiqli bir şəxsiyyətin təyin olunması Azərbaycanın müasir dövlət idarəetmə sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoyub.

Ölkə vətəndaşları haqlı olaraq bu təyinatı ölkənin hazırkı və gələcək inkişaf perspektivləri baxımından yüksək dəyərləndirir. Həm də bu səbəbdən ki, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətində insan amilini daim uca tutub, cəmiyyətdə insanpərvərlik, humanizm kimi dəyərlərin möhkəmlənməsinə, eləcə də Heydər Əliyev irsinin təbliğinə çalışıb. Onun əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə yaradıcı münasibəti, ölkə Prezidentinə yaxından dəstəyi islahatların son illərdə kifayət qədər geniş spektri əhatə etməsini və uğurlu olmasını şərtləndirən vacib amillərdəndir. Müasir idarəetmə səriştəsi, yeniliklərə meyilliliyi, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəldib. Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətində cəmiyyətin sosial sahələrinə həssas münasibət yenə ön plandadır və bu, 2004-cü ildən həyata keçirilən layihələrin uğurlu davamıdır.

Prezident İlham Əliyev əldə olunan iqtisadi nailiyyətlərin tempini, insanların yeniləşən həyat tərzi və təfəkkürünü nəzərə alaraq müasir tələblərlə uzlaşmayan idarəetmə tərzini dəyişməyə, ziyanlı vərdişlərin, bürokratik amillərin tamamilə aradan qaldırılmasına çalışır. İndiki mərhələdə dövlət başçısının başlıca tələbi yeniliklərlə ayaqlaşmaq, aparılan islahatların mahiyyətini düzgün dərk edərək ona dəstək vermək, bürokratik və neqativ amillərdən tamamilə uzaq olmaq, xalq üçün işləmək, hər bir vətəndaşın mənayeyini uca tutmaqdır.

Keyfiyyətcə yeni siyasi şəraitin tələblərinə cavab verən, islahatlara meyilli, kreativ kadrların yüksək vəzifələrə irəli çəkilməsi, mütərəqqi islahatları konyunktur iddia və maraqları baxımından həzm edə bilməyən, bu prosesdə əngələ çevrilən, bürokratik təfəkkür tərzindən uzaqlaşa bilməyən məmurların öz postları ilə vidalaşmaları deyilənləri bir daha sübut edir. Son 2 ildə aparılan ciddi kadr dəyişiklikləri, eləcə də korrupsiyaya qurşanmış şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ölkədə idarəetmə fəlsəfəsinin tamamilə dəyişməsi ilə bağlı cəmiyyətə verilən böyük mesajdır.

Ümummilli Liderin siyasətini əzmlə davam etdirən Prezident İlham Əliyevin son 17 illik fəaliyyətinin ən böyük uğurlarından biri də ölkədə milli hədəflərin formalaşmasıdır. Ölkədə həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik idealların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir. Yeni dövrün milli ideallarına çevrilən bu məqsədlərin reallığa adekvatlığı isə qətiyyən şübhə doğurmur.

***Anar ƏSƏDOV,***
***hüquqşünas***

SOCAR
SOCAR PETROLEUM QSC

*Azərbaycan neftçilərini*

**20 Sentyabr - Neftçilər Günü**

**münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır!**




# «Əsrin müqaviləsi» Azərbaycana həm də zəngin neft-qaz infrastrukturu bəxş edib

*Əvvəli 1-ci səh.*

Bakı-Novorossiysk, Bakı-Supsa kəmərləri, Səngəçal terminalı, "İstiqlal", "Dədə Qorqud" yarımdalma qazma qurğuları, "İsrafil Hüseynov" borudüzən barjı, "Tofiq İsmayılov" dalğıc gəmisi... Bunlar Azərbaycanın xarici şirkətlərlə birgə həyata keçirdiyi nəhəng neft-qaz layihələrinin hələ ilk mərhələlərində yaradılmış, yaxud modernləşdirilmiş infrastruktura aiddir.

Tərəfdaşları ilə birgə Azərbaycan dünyanın ən böyük neft-qaz terminallarından birini - Bakıdan 55 kilometr cənubda, Xəzərin sahilində Səngəçal terminalını tikdi.

Səngəçal terminalı "Əsrin müqaviləsi" imzalandıqdan sonra İlkin Neft Layihəsi çərçivəsində inşa edildi. Obyektin tikintisi 1996-1997-ci illərdə aparıldı. 1997-ci ilin noyabrında "Çıraq" platformasından alınan ilkin neft buraya həmin ilin sonunda çatdırıldı. Əvvəlcə terminal yalnız "Çıraq" neftini ixrac etmək gücündə idi. Növbəti yataqlardan gözlənilən yüksək hasilat isə obyektin xeyli genişləndirilməsi zərurətini meydana çıxardı.



Səngəçal terminalının genişləndirilməsinə 2002-ci il fevralın 20-də başlandı və işlər bir neçə il davam etdi. Bu gün terminal AÇG və "Şahdəniz"dən daxil olan neft, qaz və kondensatı qəbul edən, həmçinin ilkin emaldan keçirən çoxsaylı qurğu və avadanlıqları özündə birləşdirir. BTC əsas ixrac neft kəməri, "Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən olan Cənubi Qafqaz Boru Kəməri başlanğıcını buradan götürür. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminallarından biridir.

AÇG yataqlarından hasil olunan və Azərbaycana təmənnasız olaraq verilən səmt qazını "Azəriqaz" şəbəkəsinə qoşan kəmər də terminalın ərazisindən başlanır.

Azərbaycanın neft-qaz sahəsində "Əsrin müqaviləsi"ndən sonra əldə etdiyi ikinci böyük nailiyyət Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi və fəaliyyət göstərməsidir. BTC-nin keçdiyi yol nə qədər uzun olsa da, onun fəaliyyətinə nəzarət Azərbaycandan, Bakıdan, Səngəçal terminalından həyata keçirilir. "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində terminal bir qədər də genişləndirilmişdir. Səngəçaldan başlanan yollar Azərbaycanı getdikcə dünyanın daha uzaq ünvanları ilə birləşdirəcək.

Azərbaycanda həyata keçirilən layihələr çərçivəsində əldə edilən uğurlarda müxtəlif təyinatlı gəmilərin də böyük rolu var. Onlardan ən yenisini xatırlatmaq kifayətdir. Bu, "Xankəndi" sualtı tikinti gəmisidir. Bakı Gəmiqayırma Zavodunda inşa edilən "Xankəndi" gəmisi DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilib. Bu gəmi məxsusi olaraq suyun dərinliyinin 550 metrədək çatdığı hissələrində dünya standartlarına uyğun sualtı qurğular inşa etmək üçün layihələndirilib.

"Xankəndi" gəmisinin tikintisində ümumilikdə 2 mindən çox işçi çalışıb və onların 75 faizini yerli mütəxəssislər təşkil edib. Gəmi artıq üç ildir dənizdədir və 2027-ci ilədək "Şahdəniz-2" layihəsi çərçivəsində sualtı quraşdırma işlərində istifadə ediləcək.

Bakı Gəmiqayırma Zavodu "Xankəndi"ni ərsəyə gətirməklə Xəzər dənizi hövzəsinin gəmiçilik tarixində yeni eranın başlanğıcını qoyub. Onun inşası həm də Azərbaycanın iqtisadi və sənaye potensialının möhkəmlənməsinin yeni bir təzahürüdür.

Qeyd edək ki, Bakı Gəmiqayırma Zavodu istismara başladığı vaxtdan 25 min ton yükqaldırma gücünə malik "28 May" üzən dokunu, 50 ton dartı qüvvəsinə malik "SOCAR-1" yedək gəmisini, "Zəfər", "Üfüq" və "Turan" sərnişin gəmilərini, Heydər Əliyev adına yarımdalma qazma qurğusunun pantonlarını və üst bloklarını inşa edib. Zavod "Şahdəniz-2" layihəsi çərçivəsində bir neçə gəminin, o cümlədən "İsrafil Hüseynov" borudüzən, "Tofiq İsmayılov" dalğıc, "Gilavar" tədqiqat, "Azərbaycan" kran, "Caspian Endeavour" və "Seabed Supporter" təchizat gəmilərinin, habelə "Dədə Qorqud" yarımdalma qazma qurğusunun təmir və yenilənməsini də uğurla həyata keçirib.

Bütün bunlar "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycanın neft-qaz sənayesində yaradılan və modernləşdirilən infrastrukturun yalnız bir hissəsidir.

İllər ötəcək, hazırda ölkəmizdə həyata keçirilən neft-qaz yataqlarının işlənməsi və karbohidrogenlərin ixracı layihələri bitəcək, bu və digər sahələrdə onları yeni layihələr əvəz edəcək, yeni perspektivlər yaranacaq. Azərbaycanda neft-qaz yataqlarının işlənməsi, karbohidrogenlərin hasilatı, daşınması, ixracı üçün yaradılan infrastruktur isə dövlətin mülkiyyəti, xalqın sərvəti olaraq qalacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Sənət incilərimiz

**Üzeyir Hacıbəylinin bir sıra əsərlərində gözəl Şuşa şəhərində keçən uşaqlıq və ilk gənclik illərinin xatirələri var. Azərbaycanın musiqi diyarı olan o bənzərsiz şəhərdə gələcəyin dahi bəstəkarı xalqının məişətini, musiqi ənənələrini dərindən öyrənib, həvəskar artistlərin ifasında "Məcnun Leylinin məzarı üstündə" tamaşasına baxıb. Gördükləri yaddaşında dərin iz buraxıb. Bu duyğular ona sonralar "Leyli və Məcnun" operası və başqa əsərlər yazdırıb.**



# Səhnələri fəth edən "Arşın mal alan"


Театръ Г. З. А. Тагіева
МУСУЛЬМАНСКАЯ ОПЕРА
ПРОГРАММА
Въ Пятницу 8-го Ноября 1913 года
2-й разъ
Оригинальная оперетта УЗЕЙРЪ-БЕКА
АРШИНЪ МАЛЪ АЛАНЪ
(Рецептъ удачной женитьбы)




"Arşın mal alan" əsərinin qəhrəmanlarını da böyük Üzeyir bəy o illərdə "tanıyıb". "Arşın mal alan..." deyə oxuya-oxuya qədim şəhərin küçələrini dolaşan, yad kişilərin döyə bilmədikləri qapılar üzünə açılan arşınmalçıları da ilk dəfə o zamanlar görüb. İllər sonra şöhrətinə şöhrət qatan "Arşın mal alan" operettasında həmin səhnələri əks etdirib.

## Üzeyir bəyin son operettası - "Arşın mal alan"

Bu əsəri 1913-cü ildə Peterburq Konservatoriyasında təhsilini davam etdirərkən yazıb. Operettanın librettosunun müəllifi də Üzeyir bəy özüdür. Əvvəlcə onu polifoniya müəllimi professor Vasili Pavloviç Kalafatiyə göstərib. Əsəri çox bəyənən Kalafati onu konservatoriyanın direktoru, görkəmli rus bəstəkarı, professor Aleksandr Qlazunova təqdim etməyi məsləhət görüb. Əsər Qlazunovun da çox xoşuna gəlib və onu bütün Rusiyada ilk operetta adlandırıb.

Bundan sonra Üzeyir bəy "Arşın mal alan"ın partiturasını və librettosunu Bakıdakı dostlarına yollayıb. Hələ 1913-cü il iyulun 30-da o, Sankt-Peterburqdan Hüseynqulu Sarabskiyə göndərdiyi məktubunda bildirmişdi: "Bəradərim Hüseynqulu! Mən dəxi bu halda bir tərəfdən dərs oxumaqda və bir tərəfdən də "Arşın mal alan"ı yazmaqdayam. Amma çox qəribə operetta olacaqdır. İnşallah, sentyabrda göndərərəm ki, əvvəlcə onu qoyasınız.

...Mənim də bu qədər əlləşməyim odur ki, gələcəkdə teatr işini elə bir hala salaq ki, nəinki təkcə bir Bakı və ya Qafqaz, bəlkə hər bir yerdə və hər bir şəhərdə teatr verməyə imkanımız olsun. Ancaq bir qədər vaxt gözləmək və zəhmət çəkmək lazımdır. Mən Bakıda olarkən öz əsərlərimin qədrini bilmirəmmiş, amma burada bilirəm ki, mənim əsərim gələcəkdə böyük bir iş görəcəkdir!"

İllər sonra - 1938-ci ildə Üzeyir bəy "Arşın mal alan" haqqında qeydlərim" adlı məqaləsində yazacaqdı: "Arşın mal alan" 1913-cü ildə Peterburq Konservatoriyasında oxuduğum zaman yazılmışdır. Onun süjeti Qarabağın Şuşa şəhərinin həyatından alınmışdır. "Arşın mal alan" yazılıb qurtardıqdan sonra mən çar senzurasından əsərin çap edilməsi və oynanılması üçün icazə almağa çox vaxt sərf etdim, çox əziyyət çəkdim".

## İlk tamaşa

"Arşın mal alan"ın ilk tamaşası 1913-cü il oktyabrın 25-də Bakıda Tağıyev teatrında səhnəyə qoyulub. Tamaşanın quruluşçu rejissoru Hüseynqulu Sarabski, dirijoru Müslüm Maqomayev idi. Hüseynqulu Sarabski Əsgər, Əhməd Ağdamski Gülçöhrə, Məmməd Hənifə Terequlov Süleyman, Ələkbər Hüseynzadə Soltan bəy, Gülsabah xanım Asya, Olenskaya Telli rolunu ifa edib.

İlk tamaşa uğurlu olub. "Arşın mal alan" bir ilin içərisində yalnız Bakının teatr səhnələrində 150 dəfədən çox oynanılıb. Dövrün mətbuat orqanlarının əksəriyyəti həmin tamaşadan yazıblar. "Sədayi həqq" qəzetinin 3 noyabr 1913-cü il tarixli nömrəsində bildirilib: "Müsəlman bəstəkarı Üzeyir bəy Hacıbəyovun təzə operettası "Arşın mal alan" camaata çox xoş gəlib, təkrar oynanmasını xahiş etdiklərinə görə cümə günü, noyabrın 8-də ikinci dəfə oynanacaqdır. Soltan bəy rolunda camaatın hüsni-təvəccöhünü qazanmış Ələkbər Hüseynzadə çıxış edəcəkdir".

"Yeni iqbal" qəzetinin 16 mart 1916-cı il tarixli sayında Nəriman Nərimanov tamaşanı həm musiqi, həm də mənə cəhətdən bəyəndiyini yazıb: "Arşın mal alan" operettasında bir ideya var desək, yarar. Nədir o ideya? Qızı görməmiş almaq olmaz. Cənab Əsgər bəyin fəlsəfəsində arvad mal kimi bir şeydir. Malı görüb almaq kimi, qızı da gərək əvvəl görəsən, sonra alasan. Demək ki, Əsgər bəyin fəlsəfəsilə arvad almaq üçün bir sifətini görmək tamamdır. Şəksiz bu, bir tipdir, ağılları gözündə olan adamların tipidir...

Üzeyir bəy cənabları oxuduğu elmin səbəbinə daha gözəl operalar meydana gətirəcəkdir. Hər halda qeyri əsərlərə nisbət hal-hazırda Üzeyir bəyin əsərləri yol açır. Bu yolda Üzeyir bəyin daha artıq tərəqqi etməyini səmimi qəlbdən istəyirik".

Ancaq "Arşın mal alan"ı tənqid edənlər də az olmayıb. Belələri daha çox müəllifin qadın azadlığından, köhnə adət-ənənələrin bəzilərinin gərəksizliyindən bəhs etməsini tənqidlə qarşılayıblar. Çünki operettadakı obrazlar həyatdan uzaq olmayıb. Tacir Əsgər, Süleyman, Soltan bəy, dörd divar arasında böyümüş, savadsız, hüquqsuz, sevib-sevilməkdən məhrum, görmədikləri adama ərə getmək məcburiyyətində qalan Gülçöhrə və Asya kimilər elə o cəmiyyətdə yaşayırdılar.

Mətbuat orqanlarında da operetta barədə mənfi rəylə çıxış edənlər olub. Üzeyir bəy "Arşın mal alan" haqqında qeydlərim" məqaləsində yazıb: "Bu əsər birinci dəfə oynandığı zaman Bakı burjuaziyasının "Kaspi" qəzeti tərəfindən son dərəcə hörmətsizlik və nifrətlə qarşılanmışdır. Əsər haqqında yazılmış "tənqiddə" avtor söyülürdü. Onlar bu əsəri "qızlarımızı pis yola çağırmaqda" töhmətləndirirdilər. O zamanlar azərbaycanlı qızlar ən elementar hüquqlardan belə məhrum edilmişdilər. Bu komediyanı yazmaqda da məqsəd səhnədə musiqili əsər vasitəsilə qadın azadlığına yardım etmək, köhnə adət və ənənələri ifşa etmək idi".

Amma zaman tənqidlərin ədalətsiz, yalan olduğunu göstərib. "Arşın mal alan" böyük müvəffəqiyyətlə tamaşaya qoyulub, 80 dilə tərcümə edilib. 76 ölkənin 187 teatrında - ABŞ-ın 16 ştatında, Gürcüstanın 16, Bolqarıstanın 17, Polşanın 17, Rusiyanın 28, Çinin 8 şəhərində uğurla tamaşaya qoyulub.

1919-cu ildə Hacıbəyli qardaşlarının Türkiyədə qastrolları zamanı tamaşa elə uğur qazanıb ki, Azərbaycan artistləri İstanbuldakı "Şərq" teatrını bir neçə aylıq icarəyə götürməli olublar.

Operettanı fransız dilinə Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy tərcümə edib. 1925-ci il iyulun 4-də Parisin "Femina" teatrında fransızlar bu tamaşanı məşhur aktyorların - Dervalın (Soltan bəy), Montenin (tacir Əsgər), Passaninin (Gülçöhrə), Maqalinin (Asya) ifalarında görüblər.

Sovet hakimiyyəti illərində "Arşın mal alan" nəinki ittifaqa daxil olan respublikalarda, bütün dünyada dəfələrlə səhnələşdirilib. Üzeyir Hacıbəylinin xalqının muğam irsindən bəhrələnərək yazdığı bu əsər təkcə müəllifinə və vətəninə deyil, bütün SSRİ-yə şöhrət gətirib. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə nümayiş etdirilən "Arşın mal alan" barədə Moskva mətbuatında bir-birindən maraqlı məqalələr işıq üzü görüb.

Müəllif özü də tamaşanı bəyənib. Üzeyir bəy Böyük teatrda rejissor Hidayətzadənin quruluşunda olan "Arşın mal alan"ın keçmiş quruluşlarının hamısından üstün olduğunu qeyd edib. O, tamaşanın bədii tərtibatında gənc rəssam Ədhəm Sultanovun əməyini, artistlərdən Bülbül, H.Hacıbababəyov, Sona Mustafayeva, Səltənət Quliyeva, Aliyə Terequlova, Elmira Axundova və başqalarının ifalarını yüksək dəyərləndirib.

## "Arşın mal alan" ekranlarda

Əsərin ekran taleyi də uğurlu olub. Operetta XX əsrin əvvəllərində, Azərbaycanda "səssiz filmlər" çəkmək istəyən rejissorların müraciət etdikləri ilk əsərlərdən olub. "Arşın mal alan" müxtəlif illərdə dönə-dönə ekranlaşdırılıb. Əsər müəllifini və Azərbaycanı elə məşhurlaşdırıb ki, ermənilər bu şöhrətə əvvəl şərik çıxmaq, sonra tamamilə mənimsəmək xəyalına düşüblər. Amma Üzeyir bəyin Azərbaycan musiqi xəzinəsi üzərində qurduğu bu əsər erməni yalanlarını puça çıxarıb.

Üzeyir Hacıbəylinin doğma xalqı üçün irs qoyub getdiyi bu ölməz əsər uzun illərdir teatrların repertuarından düşmür. Tamaşa dünyanın müxtəlif səhnələrində oynanılır. 2013-cü ildə UNESKO-nun Baş Konfransının 36-cı sessiyasında "Arşın mal alan" operettasının 100 illik yubileyinin dünya səviyyəsində qeyd olunması barədə qərar qəbul edilib. Həmin il UNESKO-nun Baş Qərargahında TÜRKSOY, həmçinin Azərbaycan və Qazaxıstanın UNESKO-da daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyinə həsr edilmiş bayram tədbirləri təşkil olunub.

***Z.FƏRƏCOVA, "Azərbaycan"***

● Korifeylərimiz

# Sənətə sevginin gücü

**Bəstəkar, dirijor, pedaqoq, folklorşünas, ictimai xadim, Azərbaycan klassik musiqisinin yaradıcılarından biri, Azərbaycan musiqisində Avropa stilində ilk operanın ("Nərgiz") müəllifi, Əməkdar incəsənət xadimi... Əlli iki illə müqayisədə çox böyük işlər, nailiyyətlərdir bunlar...**



Yaxşı ki, əməlləri, qazandıqları və qazandırdıqları insan ömrünün uzunluğuna və ya qısalığına görə bəlirlənmir. Müslüm Maqomayev də qismətinə düşən əlli iki illik ömrü istedadının və zəhmətinin gücü ilə əbədiyyət mənzilinə yetirə bildi...

## Musiqi sənəti yollarında

Əsl adı Əbdülmüslümdür. Tariximizdə Müslüm Maqomayev kimi xatırlanan sənətkar əslən Qax rayonunun İlisu kəndindəndir. İlisu kəndində dəmirçilik edən atası Məhəmməd Vladiqafqaz şəhərinə köçüb. Orada yaşayıb və çeçen qızı ilə evlənib.

Əbdülmüslüm adını verdikləri oğulları 1885-ci il sentyabrın 18-də Qroznı şəhərində dünyaya gəlib. Ailədə ondan başqa iki oğlan və üç qız da olub.

Balaca Əbdülmüslüm uşaqlıq illərindən ailədə musiqiyə sevgi görüb. Bu sevgi onun həyatına təsir göstərib. İlk musiqi müəllimi böyük qardaşı olub.

Qroznı şəhər məktəbində təhsil aldığı illərdə musiqiyə marağı daha da artıb. Musiqi dərnəklərinə gedib. Məktəb orkestrinin başçısı olub, rəqs dərsləri keçib. Bacarığı və marağı yalnız musiqi ilə məhdudlaşmayıb. Məktəbin rəhbərliyi rəsmdə uğur qazanması üçün onun Sankt-Peterburqdakı incəsənət məktəbinə göndərilməsini təklif edib. Amma Müslümün ailəsinin maddi vəziyyəti buna imkan verməyib.

Qroznı şəhər məktəbini bitirdikdən sonra təhsil yoluna davam edib. Qori müəllimlər seminariyasına daxil olub. Üzeyir Hacıbəyli ilə də həmin illərdə, seminariyada tanış olub. Bu tanışlıq dostluğa, sonralar həm də qohumluğa çevrilib...

Tezliklə tələbə Müslüm Maqomayevin skripka və qaboyda gözəl ifa etdiyini seminariyada hər kəs bilib. Qori müəllimlər seminariyasında tələbələrin iştirakı ilə təşkil olunan simfonik və nəfəsli orkestrin konsertlərində o da iştirak etməyə başlayıb. Simfonik orkestrin baş ifaçısı olan gənc Müslüm Maqomayev bu konsertlərdə dəfələrlə dirijoru əvəz edib.

Tələbəlik illərində maraq dairəsi genişlənib. O, Qafqaz xalqlarının yaradıcılığı ilə maraqlanıb. Azərbaycan musiqisini öyrənərək xalq mahnılarını nota köçürüb xor üçün tərtib edib. Onun topladığı əsərlər Parisdə keçirilən Dünya Sərgisində təqdim olunub.

1904-cü ildə seminariyada təhsilini uğurla başa vurduğu üçün skripka və pulla mükafatlandırılıb. Təyinatı Şimalı Qafqazın Bekoviç kəndinə verilib. 1905-ci ildə isə o, Azərbaycanda çalışmaq arzusu ilə Lənkəran şəhərinə gəlib. Orada müəllim işləyib. Gənc pedaqoq bu şəhərdə həm də mədəniyyətin inkişafı üçün bacarığını və əməyini əsirgəməyib. Nəfəsli alətlər orkestri, xor, balalayka çalanlar ansamblı yaradıb. Lənkəran teatr qrupunun çıxışları "Bakı" qəzetinin "Müsəlman həyatı" məqaləsində əks etdirilib. Üzeyir Hacıbəyli onun xidmətləri barədə yazıb: "Gənc müəllim böyük təşəbbüs göstərərək müxtəlif özfəaliyyət dərnəkləri yaradır, bütün vaxtını sevimli sənəti olan musiqinin təbliğinə verir".

Həmin illərdə Üzeyir bəy öz məktublarında dostuna Bakıya gəlməyi məsləhət görüb. Bakıda milli musiqimizin təbliği və inkişafı istiqamətində görülən işlər, Üzeyir bəyin xidmətləri Müslüm Maqomayevin diqqətini cəlb edib.

Bakıya 1911-ci ildə köçüb. Burada şəhər kollecində işə başlayıb. Müəllimliklə yanaşı, yerli işçilərin savadlanması üçün axşam kursları açıb.

O, Bakıda da müəllimliklə kifayətlənməyib. Üzeyir Hacıbəylinin rəhbərlik etdiyi Müsəlman opera truppası ilə əməkdaşlığa başlayıb. Əvvəl musiqiçi kimi fəaliyyət göstərib. Müsəlman opera truppasının yaratdığı Azərbaycan musiqili teatrının orkestrində skripkada çalmağa başlayıb. Üzeyir bəyin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şeyx Sənan" operalarına, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarına dirijorluq edib. Sonralar həmin teatrın rəhbəri və baş dirijoru olub.

Müslüm Maqomayevin həm pedaqoq, həm də bir musiqiçi kimi Azərbaycan milli teatrının inkişafı istiqamətində gördüyü işlər onu Üzeyir bəylə daha da yaxınlaşdırıb. Bir də hər ikisi eyni ailə ilə qohum olublar. Terequlovların qızı Mələykə xanımla Üzeyir bəy, Badigülcəmal xanımla isə Müslüm Maqomayev ailə qurub.

## Yeni əsərlər, yeni arzular

O illərdə Müslüm Maqomayev bəstəkarlıq sahəsində də fəaliyyət göstərib. İlk səhnə əsərini - "Şah İsmayıl" operasını 1916-cı ildə tamamlayıb. Bəstəkar xalq əfsanəsinə əsaslanan bu əsərində milli folklor nümunələrindən bacarıqla istifadə edib. Müəllif tərəfindən opera bir neçə dəfə redaktə olunub, xorlar, ariyalar, rəqslər əlavə edilib. Müslüm Maqomayev operanı redaktə edərkən Azərbaycan xalq musiqisini toplayıb, ilk dəfə nota salıb.

Əsərin premyerası 1916-cı ilə nəzərdə tutulub. Ancaq tamaşa gününə az qalmış Tağıyevin Dram Teatrının binası yandırılıb. "Şah İsmayıl" operasının ilk tamaşası 1919-cu il martın 20-də baş tutub.

1920-ci ildə o, Azərbaycan SSR Təhsil İşçiləri Birliyinin sədri seçilib. 1921-ci ildə Müslüm Maqomayev Azərbaycan Xalq Təhsili Komissarlığının İncəsənət şöbəsinin müdiri vəzifəsinə təyin olunub. Sonralar o, Azərbaycan Dram Teatrının bədii rəhbəri, Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru olub. 1929-cu ildən Azərbaycan Radio Komitəsində musiqi şöbəsinin rəhbəri kimi çalışıb. 1931-ci ilədək həmin vəzifədə işləyib.

1927-ci ildə o, Üzeyir Hacıbəyli və Zülfüqar Hacıbəyovla bir sıra Azərbaycan xalq mahnılarını nota köçürüb.

1920-1930-cu illərdə Müslüm Maqomayev "Azərbaycan incəsənəti", "Raport veririk" kinofilmlərinə, Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" dram tamaşalarına və digər əsərlərə musiqi bəstələyib. Simfonik orkestr üçün "Azərbaycan çöllərində", "Ceyran", "Turacı", "Şüştər dəramədi", "Çeçen rəqsi" və başqa əsərlərini yazıb. Vokal musiqisi sahəsində də fəaliyyətini davam etdirib. Milli koloriti ilə diqqəti cəlb edən "Bahar", "Tarla", "Bizim kənd" mahnılarını yazıb.

"Koroğlu" dastanı əsasında 1932-ci ildə opera yazmağa başlayan Müslüm Maqomayev Üzeyir Hacıbəylinin eyni mövzuda əsər yazdığını öyrənib. Dostunun daha yaxşı opera yazacağı düşüncəsi ilə fikrindən daşınıb.

## Müslüm Maqomayev yaradıcılığının zirvəsi

Mütəxəssislər Azərbaycan musiqisinin inkişafı tarixində mühüm yer tutan "Nərgiz" operasını Müslüm Maqomayev yaradıcılığının zirvəsi sayırlar. Bəstəkar opera üzərində 1932-1935-ci illərdə çalışıb. Əsəri tamamlayan bəstəkar Azərbaycan SSR "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

Müslüm Maqomayev zəngin yaradıcılıq yolu keçib. O həm də 300-ə yaxın Azərbaycan xalq rəqsinin, mahnılarının və digər melodiyalarının simfonik şərhinin müəllifidir. Əsərlərində Azərbaycanın milli incəsənətinin təsiri hər zaman qeyd olunur.

Uzun sürən xəstəlik onu həyatdan vaxtsız ayırıb. Müslüm Maqomayev 1937-ci il iyulun 28-də Nalçikdə vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

Azərbaycan xalqı Müslüm Maqomayevin xatirəsini hər zaman əziz tutub. Azərbaycan Filarmoniyasının onun adını daşıması buna bir nümunədir.

Müslüm Maqomayevin iki oğlu olub. Oğlanlarından biri - Cəmaləddin Maqomayev Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini, Azərbaycan KP Bakı vilayət komitəsinin ikinci katibi vəzifələrində çalışıb. 1953-1957-ci illərdə isə o, Azərbaycan SSR Sənaye naziri olub.

Oğlu Məhəmməd Maqomayev isə teatr rəssamı, multiplikator olub. İkinci Dünya müharibəsi onu gənc yaşda həyatdan qoparıb. Gənc Məhəmməd Maqomayev cəbhəyə gedib. 1945-ci il aprelin 24-də Berlin yaxınlığında qəhrəmancasına həlak olub.

Məhəmməd Maqomayevin oğlu Müslüm Maqomayev nəinki atasına, adını daşıdığı babasına layiq övlad olub, Azərbaycan xalqının fəxrinə çevrilib. Azərbaycan musiqi sənəti növbəti dəfə nəvə Müslüm Maqomayevin adı ilə yüksəlib..

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Muğam ustadlarımız

# "Şuşanın dağları başı dumanlı..."

## "Segah İslam"ın səsi o dumanlı havada da Cıdır düzündən, İsa bulağından gələrdi

**Musiqi dünyasının özünəməxsus çalarları var. Bu, elə bir aləmdir ki, onu heç bir sözlə ifadə etmək mümkün deyil. Musiqi hiss, nəfəs, ruhun ifadəsidir deyib klassiklərimiz. Musiqili səslər olub ki, onlar ilahi vergisi sayılıb.**

Muğam və segahların ifaçıları bu baxımdan seçiliblər. Hər xanəndənin səsi muğama və segaha köklənə bilməyib. Lakin elələri də olub ki, "Segah İslam" kimi, səsi məhz segaha, muğamata yatımlılığı ilə fərqlənib, hətta elə bu adla da məşhurlaşıb, sevilərək yaşayıblar.

"Segah" muğamını və onun bütün variantlarını - "Zabul-Segah", "Mirzə Hüseyn segahı", "Orta segah", "Xaric segah" muğamlarını xüsusi bir şövq və məharətlə oxuduğuna görə xalq tərəfindən "Segah İslam" çağırılan, 1910-1915-ci illərdə "Sport-Rekord" və "Ekstrafon" səsyazma şirkətləri tərəfindən muğamları, bir sıra təsnifləri qrammofon vallarına yazılan İslam Abdullayev də belə ölməz sənətkarlarımızdan idi.

## "Segah İslam" "Xanəndələr məclisi"ndə

Sənəti sənətkar dəyərləndirə bilər: ölməz Xalq şairi Səməd Vurğunun "Segah İslam" haqqında vaxtilə söylədiyi dəyərli fikirlər kimi: "Mən İslama kamil oxuyan kimi baxıram. O, "Yetim segah"ı elə oxuyur ki, bütün məclisi əlinə alır. İslamın yaxşı cəhəti odur ki, onun "Segah"larında Azərbaycan ruhu daha çoxdur".

1876-cı ilin dekabr ayında Şuşa şəhərində anadan olan İslam Əbdül oğlu Abdullayev ilk təhsilini elə orada, şəhər məktəbində alıb. Hələ məktəb illərindən musiqiyə böyük həvəs göstərsə də, müəllim yanına, hazırlığa getmək imkanı olmayıb. Lakin bir təsadüf onun musiqi aləminə gəlib çıxmasına təkan verib: o, şair M.M.Nəvvabın "Xanəndələr məclisi"nə dəvət olunub. Beləliklə də, həvəskar ifaçının arzuları qanad açıb, bütün çətinliklər arxada qalıb.

"Segah"ı ilə əsrlərə və nəsillərə yol açan İslam Abdullayev Azərbaycan milli musiqi mədəniyyətinə misilsiz töhfələr verən sənətkarlardan biri kimi tanınıb.

Azərbaycan vokal sənətinin və Qarabağ muğam məktəbinin görkəmli nümayəndələrindən olan sənətkar "Segah" muğamının təkrarsız ifaçısı olub. Ona görə də xalq arasında ona "Segah İslam" deyiblər.

## Ustad sözü - sözün düzü

İslam Abdullayev xatirələrinin birində bu barədə qısaca belə deyib: "...M.M.Nəvvabın məclisində ilk dəfə o dövrün məşhur xanəndələrindən Məşədi İsini, Hacı Hüsünü, Mirzə Muxtarı, Dəli İsmayılı, Keştazlı Həşimi dinləmişəm, onlardan dərs almışam. Mən həmin məclisdə Hacı Hüsüdən "Segah", Məşədi İsidən "Mahur", Keştazlı Həşimdən "Bayatı-Qacar", Mirzə Muxtardan "Rast", Dəli İsmayıldan "Rahab" muğamlarını öyrəndim. Lakin özüm də bilmirəm, nədənsə bu muğamların içərisində məni daha çox cəlb edən "Segah" idi. Rəhmətlik Sadıq tarını döşünə alan kimi mənim üçün "Segah" çalardı. Məni dinləyən usta Hacı Hüsü isə bu muğama yeni-yeni guşələr, xallar əlavə edirdi. Sonra isə məndən onları təkrarlamağı istəyirdi..."

Ustad xanəndə Seyid Şuşinskinin də onun haqqında söylədikləri maraqlıdır: "İslam olan məclisdə nə Cabbar, nə Ələsgər, nə Keçəçi Məhəmməd, nə də mən "Segah" oxumazdıq. Həqiqətən, belə idi. İslamın oxuduğu "Segah", xüsusilə "Yetim segah" nəinki Zaqafqaziyada, hətta bütün Yaxın Şərqdə məşhur idi. Məhz buna görə də xalq onu "Segah İslam" adlandırırdı".



İslam Abdullayevin xanəndə kimi ilk müstəqil çıxışı görkəmli tarzən Sadıqcanın oğlu Əsədullanın toyunda olub. Musiqişünas Firudin Şuşinskinin yazdıqlarına görə, toyun axırıncı gecəsində şair Mir Möhsün Nəvvab toyun "padşahı" Kərbəlayı Şükürdən xahiş edir ki, İslamın "Segah" oxumasına icazə versin: "Həmin gecə İslamın yanıqlı bir səslə oxuduğu "Segah" məclis əhlini, orada iştirak edən musiqiçiləri heyran edir. Buradakı ilk çıxışdan sonra İslamın şöhrəti artır və bundan sonra tez-tez Qarabağ, Gəncə, Şəki, Şirvan mahallarının el şənliklərinə dəvət edilir. Artıq onun səsi İran məclislərindən gəlməyə başlayır. Rəşt şəhərində məclislərin birində Tehran xanəndələrindən Rübabə, Sidqiyyə və Qəmər Mülük kimi xanımlarla yaxından tanış olur. Həmin məclisdə İslam Abdullayev tarzən Məşədi Zeynalın müşayiətilə "Segah"ı elə oxuyur ki, həmin məşhur xanəndələrin özləri də heyran qalırlar.

Şərqin Bülbülü də ustad İslam Abdullayevin ifaçılıq məharətinə yüksək qiymət verib: "...İslam fars qəzəli oxumazdı. O, Azərbaycan şairlərindən, xüsusilə Füzulinin və Zakirin qəzəllərini oxuyardı. "Segah"ı o qədər gözəl oxuyardı ki, ona qulaq asdıqca adamın ürəyi titrəyərdi..."

## Qoşa qanad: Qurbanın tarı, İslamın segahları...

Ölməz sənətkarın haqqında ustadların bir-birindən dəyərli fikirləri istənilən qədərdir. Xatirələrdən məlum olur ki, Cabbar Qaryağdıoğlu da İslam Abdullayevi toyda, məclislərdə görəndə xahiş edərmiş ki, "Segah" oxusun.

Məclislərin birində Qurban Pirimov tarda müşayiət edib, İslam da oxuyub. Ustad xanəndə Cabbar Qaryağdıoğluna elə gəlib ki, İslamı dilə gətirən tarın qeyri-adi çalınmasıdır. Yəni musiqi onu cuşa gətirir ki, İslam belə yanıqlı oxuyur. Bunu yoxlamaq üçün bir müddət o da Qurban Pirimovla gedir məclislərə. Lakin sonralar etiraf edib ki, İslamın nəinki külli-Qarabağda, heç ətraf bölgələrdə də tayı-bərəbəri yoxdu muğam, segah oxumasında.

İyirminci yüzilliyin əvvəllərində, daha doğrusu, 1901-1905-ci illərdə İslam Abdullayev tarzən Qurban Pirimovla Qarabağ və Gəncəbasarın əksər məclislərində çıxış edib. Qurban Pirimov da xatirələrində deyib ki, İslamın "Segah"ına söz ola bilməz. O, "Yetim segah"ı oxuyanda elə bil dağı-daşı dilə gətirirdi.

O zamanların gənc xanəndələrindən sayılan Əsgər Qurbanov, Cəmil Məmmədov, Bülbül, Xan Şuşinski, sonralar isə Zülfü Adıgözəlov, Həşim Kələntərli, Süreyya Qacar və başqaları "Segah" oxuyarkən məhz İslam Abdullayevin yolu ilə gediblər.

Ustad xanəndə bir müddət məşhur tarzənlərdən Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Şirin Axundovla birlikdə çalıb-oxuyarmış.

...Ömür adlı karvan yolunun bir ucu olumlu, bir ucu da ölümlüdür. O kəslər xoşbəxt hesab edilir ki, özündən sonra yadigarları ilə xalqın yaddaşında yaşayırlar. Görkəmli sənətkar İslam Abdullayev 1964-cü ildə, ömrünün 88-ci payızında Şuşadan çox-çox uzaqlarda, Xəzərin ləpədöyənində əbədiyyətə qovuşanda da deyirlər ki, pıçıltısında "Yetim segah" donub...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

“Bakı Abadlıq Xidməti” MMC
Azərbaycan neftçilərini
20 Sentyabr - Neftçilər Günü
münasibətilə təbrik edir, xoşbəxtlik,
əmin-amanlıq və firavan həyat arzulayır!



AZPETROL
“Azpetrol” şirkətinin rəhbərliyi və kollektivi
Azərbaycanın neft və qaz sənayesi işçilərini
20 Sentyabr - Neftçilər Günü
münasibətilə ürəkdən təbrik edir, Azərbaycan
xalqına və həmkarlarına cansağlığı, xoşbəxtlik,
firavan həyat, sülh və davamlı uğurlar arzulayırlar!




# Təhsil dövlət siyasətinin vacib strateji istiqamətlərindəndir

**Prezident İlham ƏLİYEV:** “Müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcək”

*Əvvəli 1-ci səh.*

Lakin distant ənənəvi təhsili üstələyə bilmədi. Hər kəs yeni dərs ilinin əvvəlki, öyrəşdiyimiz və sevdiyimiz qaydada açılmağını intizarla gözləyirdi. Nəhayət, bir neçə aylıq ayrılıqdan sonra bütün təhsil müəssisələri karantin qaydalarına riayət etməklə qapılarını təhsilalanların üzünə açdı. Sentyabrın 15-də bütün məktəblərimizdə həsrətlə gözlədiyimiz ilk zəng müəllim və şagirdləri məktəbə səslədi.

Azərbaycanın COVID-19-la mübarizədə uğurlu fəaliyyəti, qlobal təhlükənin yayıldığı ilk günlərdən operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilməsi, ölkə ərazisində virusu nəzarətolunan səviyyəyə salması təhsil ictimaiyyətinin intizarına son qoymağa imkan yaratdı. Təlim-tədris müəssisələrimizin pandemiyanın şərtlərinə uyğunlaşdırılmış şəkildə fəaliyyətinə qərar verildi. Bu il pandemiya dövründə yeni dərs ili yeni şəraitdə və formatda təşkil edildi. İlk olaraq ibtidai sinif şagirdləri dərslərə başladı. Yuxarı sinif şagirdləri üçünsə ənənəvi təhsil oktyabrın 1-dən bərpa ediləcək. Yeni dərs ilinin yeni formatda təşkil edilməsinin əsas məqsədi şagirdləri, təhsil işçilərini və ümumilikdə, vətəndaşlarımızı pandemiyadan qorumaqdır.

Ölkəmizin mövcud pandemiya dövründə olmasına baxmayaraq, şagirdlərin təhsildən kənarda qalmaması üçün dövlətimiz tərəfindən mühüm addımlar atılıb, virtual və teledərslər təşkil edilib. Yaranan çətin vəziyyətə baxmayaraq, təhsil sistemi öz işini uğurla davam etdirib, şagirdlər öz səyləri, bilikləri sayəsində lazımi bal toplayaraq arzusunda olduqları ixtisasa yiyələnmək üçün tələbə adını qazanıblar.

### 17 ildə 3700 məktəb

Elm və təhsil hər bir dövlətin davamlı inkişafında mühüm rol oynayır. Azərbaycan Respublikasında təhsilin, insan kapitalının inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətidir. Müstəqil Azərbaycanın təhsilində islahatların bilavasitə təşəbbüskarı olan Ümummilli Lider Heydər Əliyevin bu sahənin inkişafına göstərdiyi diqqət və qayğı bu gün dövlət başçısı tərəfindən də uğurla davam etdirilir. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təhsil siyasətinin ugurlu davamının göstəricisidir. Dövlət başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin vacib, strateji istiqamətlərindən biridir.

Hər il ölkəmizin bütün bölgələrində beynəlxalq standartlara cavab verən yeni məktəb binaları tikilir, ali təsil ocaqları yaradılır. Azərbaycanın ən ucqar kəndlərində belə yeni məktəblərin istifadəyə verilməsi, günün tələblərinə cavab verən orta məktəb binalarının inşası, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastrukturun tamamilə yenilənməsi dövlətin bu sahənin inkişafına qayğısının bariz nümunəsidir.

Son 17 il ərzində bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir olunub. Bu, ölkənin məktəb fondunun böyük əksəriyyətini təşkil edir. Çünki Azərbaycanda hazırda 4500-ə qədər məktəb var, onların 3700-ü tam yeni görkəm alıb və yenidən inşa edilib.

Pandemiyanın fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərinin azalmasına baxmayaraq, ölkədə təhsil ocaqlarının tikintisi bu il də davam etdirilib, heç bir sosial layihə ixtisar olunmayıb. 2020-ci ildə 147 məktəbin tikintisi nəzərdə tutulur. Onlardan 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilib. Artıq 17 ildir ki, Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə çox böyük işlər görür. Azərbaycanda yeni məktəblərin tikintisinin geniş vüsət alması Heydər Əliyev Fondu tərəfindən başlanmış “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində həll olunur. Təhsil infrastrukturunun yenilənməsi istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi işlər xüsusi qeyd edilməlidir. Fondun dəstəyi ilə xeli sayda məktəblərin maddi-texniki bazası yaxşılaşdırılıb, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlərə nail olunub.

### Ali təhsil müəssisələrinin inkişafına xüsusi diqqət yetirilir

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə indiyədək respublikamızın 45 bölgəsində, ümumilikdə, 293-dən çox modul tipli məktəb quraşdırılıb. Cari ilin sonuna kimi daha 60 modul tipli məktəb istifadəyə veriləcək. Beləliklə, modul tipli məktəblərin quraşdırılması ilə bölgələrdə, xüsusilə ucqar kəndlərdə qəzalı və istismar müddəti başa çatan məktəblərin problemi tamamilə aradan qaldırılacaq.

Ölkəmizdə ali təhsil müəssisələrinin inkişafına, maddi-texniki bazasının genişləndirilməsinə də xüsusi diqqət yetirilir. Bu il ali məktəblərin korpuslarının tikintisi təmin edilib. İyun ayında dövlət başçısının iştirakı ilə Gəncədə Dövlət Aqrar Universitetinin yeni tədris korpusu istifadəyə verildi. Sentyabrın əvvəllərində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ADA Universitetinin iki yeni korpusunun, eləcə də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yenidən inşa olunan 3 saylı tədris korpusunun açılışı oldu.

Son illər ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. Azərbaycanın bütün bölgələrində istər orta məktəblərdə, istərsə də universitetlərdə təhsilin dünya standartlarına uyğun qurulması üçün dövlət səviyyəsində ciddi işlər aparılır. Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və respublikamızda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının gerçəkləşdirilməsi məqsədilə əhəmiyyətli tədbirlər həyata keçirilir. Azərbaycan Prezidenti tərəfindən ölkəmizin gələcəyi olan gənclərin inkişafına, elm və təhsilin tərəqqisinə xüsusi qayğı göstərilir. Yüzlərlə azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrində ən tanınmış universitetlərdə dövlət hesabına təhsil almağa göndərilir.

### Gələcəyimiz bugünkü şagirdlərin, tələbələrin əlində olacaq

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən təhsil siyasətinin çox mühüm strateji hədəflərindən biri “qara qızıl”ın intellektual kapitala çevrilməsidir. 2004-cü ildə bəyan edilmiş “qara qızıl”ı insan kapitalına çevirmək strategiyasında elmin və təhsilin oynadığı başlıca rol daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə Azərbaycanda həm təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, həm də yüksəkkeyfiyyətli tədris prosesinin həyata keçirilməsi mühüm yer tutur. Məktəblilər beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar. Ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplanılır, müəllimlərin əməkhaqları artırılır, diaqnostik qiymətləndirmədən keçənlər yüksək maaşla təmin olunurlar.

Son illər təhsil sahəsində həyata keçirilən uğurlu islahatlar təhsil işçilərinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına təsir göstərib. Prezident İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciətində müəllim peşəsinə marağın bərpa olunmasını bununla əlaqələndirib. Dövlət başçısı qeyd edib ki, bu sahəni seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gəncimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıb, gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar: “Əlbəttə ki, bu, gənclərimizin müəllim olmaq istəyini əsaslandırır, eyni zamanda müəllim peşəsi bütün dövrlərdə Azərbaycanda ən hörmətli peşələrdən biri olmuşdur. Mən çox şadam ki, bu gün biz bu peşənin prestijini bərpa edirik və bu, eyni zamanda gələcəkdə Azərbaycanda bilikli, savadlı insanların sayının artmasına gətirib çıxaracaq. Çünki müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcəkdir, bu, şübhəsizdir”.

Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən islahatlar onu deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Dövlət rəhbəri müraciətində də vurğulayıb ki, gələcəkdə ölkəmizi idarə etmələri üçün gənclərimiz bilikli, savadlı olmalıdırlar: “Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar”.

Dövlət rəhbərinin də qeyd etdiyi kimi, burada ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Lakin müəllimlər də şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər: “Mən şadam ki, bu gün Azərbaycanda yetişən gənclər məhz bu yüksək meyarlara cavab verir. Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək, gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər”.

*Xəyalə MURADLI,*
*“Azərbaycan”*

◆ 21 Sentyabr Beynəlxalq Sülh Günüdür

# Sülh - bütün odsaçan silahlardan güclü vasitə

Ölkəmiz 30 ildən çoxdur bu günü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şəraitində qeyd edir

*Əvvəli 1-ci səh.*

Sülh bəşəri rəmzə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental bir məfhumdur. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci ildə 21 Sentyabrın Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul edib. Bu əlamətdar günün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca daha çox üzə çıxır.

1999-cu ildə rejissor Ceremi Cilli cəmiyyətin əsas problemləri və nisbətən təcili həll olunmalı məsələlər barəsində “Peace one day”i yaratmağa məcbur oldu. Əsas cəhd ondan ibarət idi ki, heç olmasa ildə bir gün bütün dünyada insan zorakılığının qarşısı alınsın, ön cəbhələrdə silahlar sussun, atəşkəsə əməl edilsin.

21 Sentyabr nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, köklü zorakılığa qarşı mübarizənin güclənməsinə nail olmaq üçün bir fürsətdir. Onun əsas məqsədi milyardlarla insanın sülh şəraitində, açıq səma altında təhlükəsiz yaşamasına ciddi ehtiyacı olduğunu sübut etməkdir. Çünki yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq sülh istəyən hər kəsin buna haqqı var.



Beynəlxalq Sülh Günü təsis edildiyi vaxtdan hər il BMT-nin Baş katibi dünya xalqlarına müraciət edir. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin ozamankı Baş katibi Pan Gi Munun müraciətində bildirildiyi kimi, hələ də dünyada bir çox insanların hüquqları xüsusilə silahlı münaqişələr zamanı və atəşkəs dövründə də pozulmaqda davam edir: “Məhz buna görə də biz çalışmalıyıq ki, Bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin. 21 Sentyabr Beynəlxalq Sülh Günüdür. Mən ümumdünya liderlərinə və bütün dünya əhalisinə səslənərək, münaqişə, yoxsulluq və aclığa qarşı, hamı üçün insan hüquqlarının təmin olunması istiqamətində qüvvələrin birləşdirilməsinə çağırıram”.

Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, hər yerdə qorunmur, müdafiə edilmir. Buna görə də zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, coğrafiyası genişlənir.

Azərbaycan xalqı artıq neçə ildir Beynəlxalq Sülh Gününü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şəraitində qeyd edir. Beynəlxalq vasitəçilərin illərlə apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına hələ də əngəl yaradır. Azərbaycan Prezidenti İlham Əliyev istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyondan artıq qaçqın və məcburi köçkünlərlə görüşlərində NATO-nun “Sülh Naminə Tərəfdaşlıq” Proqramına qoşulan ölkəmizin münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə vurğulayıb. Lakin təcavüzkar Ermənistan tamamilə bunun əksini nümayiş etdirməkdədir. 1994-cü ildən münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, yalnız Azərbaycan buna birtərəfli qaydada əməl edir. Ermənistan isə nəinki atəşkəsə əməl etmir, üstəlik, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozur!

Bu ilin iyul ayının ortalarında Tovuz rayonu istiqamətindən Azərbaycanın dövlət sərhədlərini pozan təcavüzkar Ermənistan layiq olduğu cavabı alsa da, bir daha imzalanmış sülhə əməl etmədiyini təsdiqlədi.

Beynəlxalq Sülh Günü münasibətilə hər il bir qayda olaraq respublikanın əlaqədar təşkilatlarında, eləcə də mədəniyyət müəssisələrində tədbirlər keçirilir. Bu il koronavirus pandemiyası ilə əlaqədar olaraq kütləvi tədbirlər istisna edilsə də, onlayn şəklində həmin günün mahiyyəti gənclərə və məktəblilərə çatdırılır.

BMT Baş Məclisi 21 Sentyabrı Beynəlxalq Sülh Günü olaraq dəyişməz bir tarix kimi təsdiq etmişdir. Baş Məclis belə qərara gəlmişdir ki, BMT-nin, ona üzv olan dövlətlərin və bütün bəşəriyyətin cəhdlərini mərkəzləşdirərək, sülh ideallarını inkişaf etdirməyə imkan verən və onların hər vəchlə sadiqliyini sübuta yetirən xüsusi bir vaxt təyin olunmalı idi ki, 21 Sentyabr da məhz bu baxımdan seçilmişdir.

Yeri gəlmişkən. onu da xatırladaq ki, bu günlə bağlı hətta beynəlxalq sülh mükafatı da təsis olunub. BMT-nin 60 illik yubileyinə həsr olunmuş “Qızıl Göyərçin” beynəlxalq sülh mükafatı 2008-ci ildən etibarən təqdim edilir. Bu mükafat inteqrasiya, sülh, insan hüquqları bərabərliyi, sosial tərəqqi və azadlıq şəraitində yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması uğrunda mübarizə aparan şəxslərə verilir. Bu yüksək və ali mükafata dünyanın tanınmış simalarından olan Roma papası XVI Benedikt, Dalay Lama, Nobel mükafatları laureatları Desmond Tutu və Lex Valensa, Çexiyanın sabiq prezidenti Vatslav Havel, Almaniyanın keçmiş dövlət başçısı Roman Hersoq, Bundestaqın spikeri Norbert Lammert, Almaniyanın Federal təhsil naziri xanım Annete Şavan, həmin ölkənin ailə naziri xanım dr. Kristina Şröder və digər görkəmli şəxsiyyətlər layiq görülmüşlər.

*Məhəmməd NƏRİMANOĞLU,*
*“Azərbaycan”*

# Azərbaycanda koronavirus infeksiyasından daha 177 nəfər sağalıb, 148 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 177 nəfər sağalıb, 148 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 39 min 42 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 601 nəfər müalicə olunaraq sağalıb, 574 nəfər vəfat edib. Aktiv xəstə sayı 1867 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 47 min 906 test aparılıb. Dünənki test sayı isə 6722-dir.




NEFTÇİLƏR GÜNÜ

Neftçilər Günü münasibətilə neft sənayesi işçilərinə, dost və qardaş Azərbaycan xalqına daha böyük uğurlar arzulayırıq.

TEKFEN İNŞAAT

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN"

qəzetinə abunə yazılışı kampaniyası davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 564-63-45, (050) 214-04-05 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

Hörmətli oxucular!
Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.

ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti
açıq tender elan edir

"Azərsu" ASC-nin yeni inzibati binasının son tamamlama (tikinti-quraşdırma, interyer, landşaft, elektromexanika, yoxlama və sazlama) işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 1033 E-mail: i.tagiyev@azersu.az və Novruzov İntizam Cəmil oğlu, daxili 3019, E-mail: intizam.novruzov@azersu.az) ala bilərlər.

Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (ən azı 10 milyon manat dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *son üç ili əhatə edən audit hesabatı;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 23 oktyabr 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 noyabr 2020-ci il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 04 noyabr 2020-ci il saat 16:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

# Beynəlxalq aləm



## Özbəkistan əcnəbilər üçün sərhədlərini açır

Oktyabrın əvvəlindən Özbəkistan koronavirusa qarşı mübarizə tədbirlərinin yumşaldılması çərçivəsində xarici turistlərin qəbulunu bərpa edəcək.

Ölkə hökuməti yanında Operativ Qərargah bu qərarın pandemiyaya qarşı mübarizə üzrə respublika xüsusi komissiyasında qəbul olunduğunu bildirib. Sərhədlər bütün nəqliyyat növləri üçün açılır.

"Oktyabrın 1-dən Özbəkistanda turizm girişinə məhdudiyyətlər aradan qaldırılacaq", - RİA Novosti xəbər verir.

Ölkəyə daxil olarkən turistlərə iki həftəlik karantin keçmək lazım olmayacaq, lakin koronavirusun olmaması haqqında arayış və tibbi sığorta məcburidir.

## Nigeriyada "Boko Haram"ın 16 döyüşçüsü məhv edilib



Nigeriyanın şimal-şərqində həyata keçirilən hava əməliyyatı zamanı "Boko Haram" terror təşkilatının 16 döyüşçüsü məhv edilib. Bu barədə Afrika ölkəsinin Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi Con Enençe məlumat verib.

Onun sözlərinə görə, Nigeriya Silahlı Qüvvələri aviasiyanın dəstəyi ilə Mayduquri ştatının Kassa-Kura rayonunda genişmiqyaslı antiterror əməliyyatı həyata keçirib.

"Cinayətkar təşkilatın daha 11 üzvü tutulub, çoxlu sayda silah-sursat götürülüb, terrorçuların sığınacaqları məhv edilib", - deyə Enençe bildirib.

"Boko Haram" 2000-ci illərin əvvəllərindən Nigeriya, Kamerun, Çad Və Nigerdə fəaliyyət göstərir. 2009-cu ildən 20 mindən artıq insan bu cinayətkar təşkilatın qurbanı olub.

## Həftər italyan balıqçılarını girov saxlayır



Xəlifə Həftərin qüvvələri ayın əvvəlində nəzarət etdikləri Benqazinin sahilləri yaxınlığında 16 italyan balıqçısını saxlayıb. Bu barədə İtaliyanın "La Stampa" qəzetində dərc edilmiş "İtaliyanın şantajı, Madzara del Vallodan olan balıqçılar Həftərin girovlarıdır" adlı məqalədə deyilir.

Qəzetin yazdığına görə, Həftər qiyamçıları balıqçıları İtaliyada həbsdə olan dörd tərəfdarına dəyişməyə çalışır. Məlumata görə, liviyalılar 2015-ci ildə insan alverinə aidiyyət ittihamı ilə saxlanılıblar. Bildirilir ki, İtaliyanın Xarici İşlər naziri Luici Di Mayo bu məsələni RF və Birləşmiş Ərəb Əmirliklərindən olan həmkarları ilə bu yaxınlarda keçirilmiş danışıqların gündəliyinə daxil edərək, balıqçıların azad olunması məqsədilə Həftərə öz təsirlərindən istifadə etmələrini xahiş edib.

İtaliyanın Siciliya adasındakı Madzara del Vallo kommunasında qeydiyyata alınan, müvafiq olaraq 10 və 6 nəfərlik heyət üzvləri olan İtaliyanın "Antartide" və "Medinea" balıqçı gəmiləri ayın əvvəlində Liviya sahillərindən 35 mil məsafədə ələ keçirilib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Ziyad Səmədzadə ailəsi ilə birlikdə Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Həmid Bağırov ailəsi ilə birlikdə Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tələbə dostları Tofiq Musayevə anası

**ZƏKİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAĞÖZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi və idarənin kollektivi Şeyxülislamın Mühafizə Xidmətinin əməkdaşı Fikrət Hüseynova atası

**FAİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkəti Müşahidə Şurasının sədri Elxan Bəşirov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7618
Sifariş 2152
Qiyməti 40 qəpik